Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

22 OKTYABR 2019-cu il

№ 187 (4085)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AVROPA BİRLİYİNİN 19 OKTYABR AKSİYASINA İKİLİ STANDART YANAŞMASI - AŞKAR YALAN...

səh. 4

19 oktyabr aksiyasının radikallar üçün rüsvayçı təzahürləri...

səh. 6

Azərbaycanda media azadlığını qaralayan xaricilərə daha bir fakt - iki gün icazəsiz aksiyalarda jurnalistlər tam toxunulmaz işlədilər

səh. 4

Ermənilər qadınlar məsələsində İstanbul Konvensiyasının əleyhinə çıxır, Bakıda isə bir qrup qadın dəstəsi Konvensiyanı müdafiə edir...

səh. 8

Bakıda qadın aksiyaçıların polisi açıq-aşkar təxribata çəkmək cəhdləri baş tutmadı...

səh. 7

Fransada 10-cu şəhərin ermənilərlə saxta "qardaşlaşma sazişi" ləğv olundu

səh. 11

Türkiyənin Suriya əməliyyatları Ermənistanda Rusiya bazasının taleyi barədə müzakirəni yenidən qaldırıb

səh. 12



## Azərbaycanı qaralayan Avropanın özündə polis aksiyaçılarla belə davranır...

səh. 5-6



Azərbaycanda yeni müxalifət - tam yenidən yaranacaq, ya köhnələr transformasiya olunacaq...

səh. 8

Dünya ölkələri Çinin, Çin isə Azərbaycanın imkanlarından faydalanmağa can atır...

səh. 13

Hərbi büdcəmizin böyüməsi təcavüzkarı lərzəyə saldı

səh. 9

səh. 3

21 oktyabr 1987-ci il - SSRİ tarixində və Heydər Əliyevin biografiyasında dünyanın diqqətini çəkən dəyişiklik günü...



səh. 7

Qanunsuz radikal aksiya iştirakçıları ilə polisin qanuni davranışları - 19 və 20 oktyabrda...



səh. 10

"Bloqqer Əli Kərimli hər prosesdə özünü xarici etiraz liderlərinə oxşatmağa çalışır"



səh. 14

BMT Azərbaycanda qadın zorakılıqları faktlarını niyə bu qədər şişirdir?



səh. 11

4 milyondan çox adamın rifahını yaxşılaşdıran əlavə milyardlarla vəsait dövriyyədə - inflyasiya cəmi 2 faiz... Azərbaycan iqtisadiyyatının gücü...



## Azərbaycan XİN-dən avrokomissarın əsassız bəyanatına tutarlı cavab...

*"Bəzi təşkilatların əsassız bəyanatlar yayması Azərbaycana münasibətdə ikili standartların tətbiqi kimi qiymətləndirilməlidir"*

**Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Avropa Şurasının İnsan hüquqları üzrə komissarının bəyanatının şərh edilməsi ilə bağlı KİV-in ünvanladığı sualı cavablandırıb.**



Baki-xeber.com xəbər verir ki, mətbuat katibi Leyla Abdullayeva deyib: "Gənc demokratik ölkə olan Azərbaycanda insanların bütün hüquq və azadlıqları, o cümlədən, sərbəst toplaşmaq hüququ təmin olunub. Vurğulamaq istərdim ki, bir qrup insanın sərbəst toplaşmaq hüququ digər qrup insanların hüquqlarının pozulması hesabına təmin oluna bilməz. Bunu hamıdan yaxşı Avropa Şurasının İnsan hüquqları komissarının bilməsi gərəkdir.

Oktyabrın 19-da bir qrup şəxsin mitinq keçirmək müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edildiyindən, bu mitinqin keçirilməsi üçün Bakı şəhərində digər ərazi müəyyən edilmişdir. Mitinq müraciəti edən şəxslər qəsdən toqquşma yaratmaq məqsədilə şəhərin mərkəzi küçələrinə axışmağa cəhd etmişlər və hüquq- mühafizə orqanları bu qanunsuz aksiyanın qarşısını almağa məcbur olmuşdur. Polis kübar və mədəni davranış nümayiş etdirib və heç kim ciddi xəsarət almamışdır. Aksiyada iştirak edənlərin böyük əksəriyyəti rəsmi xəbərdarlıq edildikdən sonra sərbəst buraxılmışdır, digər şəxslərlə bağlı isə işlərinə müvafiq qaydada baxılıb qərar qəbul ediləcəkdir.

Komissarın bəzi Avropa ölkələrində nümayişçilərə qarşı rezin güllələrdən və həddindən artıq şiddətdən istifadə olunması hallarına nəzər yetirməsi yaxşı olardı.

Bəzi təşkilatların məsələnin mahiyyətinə varmadan, müvafiq rəsmi qurumların mövqeyini öyrənmədən tələsik şəkildə əsassız bəyanatlarla çıxış etməsi hər hansı bir şəkildə faydalı adlandırıla bilməz, əksinə, Azərbaycana münasibətdə ikili standartların tətbiq edilməsi kimi qiymətləndirilməlidir.

Bir daha vurğulayıram ki, Azərbaycanda insanların fundamental hüquq və azadlıqları təmin olunur və ölkənin hüquq-mühafizə orqanlarının əsas vəzifəsi məhz bu azadlıqların keşiyində durmaqdır".

---

## İslahatlara qarşı çıxanlar barədə Prezidentin ittihamlarına "Polisə Dəstək" İctimai Birliyindən də dəstək gəldi...

**Oktyabrın 19-da "Polisə Dəstək" İctimai Birliyinin İdarə Heyətinin növbədənkənar iclası keçirilib.**

İclasda oktyabrın 15- də Azərbaycan Prezidenti yanında keçirilən iqtisadi müşavirədə ölkədəki islahatlara, dövlətin daxili və xarici siyasətinə qarşı olanlara dövlət başçısı İlham Əliyevin reaksiyası və bu istiqamətdəki tapşırıqlar müzakirə edilib. "... Bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunub. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meylli olan yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Mətbuat bir növ daxili mübarizə növünə çevrilib. Bu dözülməzdir...!" Bu ifadələri həmin müşavirədə Prezident söyləyib.

Hakimiyyətin 4-cü qolu kimi diqqət çəkən mətbuatda da maraqlı şəxslər tərəfindən islahatlara qarşı meydan açılır. Hesab edirik ki, bu da dözülməzdir. Dövlətin bərabər hüquqlu vətəndaşlarının müəyyən, lap az hissəsi bizə qarşı çıxırsa, deməli bizdən deyillər, biz də onlara qarşı olmalıyıq.

"Polisə Dəstək" İctimai Birliyinin İdarə Heyəti bəyan edir ki, ölkədəki davamlı sabitlik, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə Azərbaycan Polisinin 141 ölkə arasında keçirilən tədqiqatın nəticəsinə görə 18-ci yerdə qərar tutması, polis orqanlarına əhali tərəfindən etibarın və inamın artması, mülkiyyətin və şəxsiyyətin toxunulmazlığının konstitusion müdafiəsi dövlətin düşünülmüş və uzunmüddətli siyasətinin, milli fəaliyyət proqramlarının və strategiyasının təmin olunmasının canlı təzahürü kimi qəbul edilməlidir.

Prezident korrupsiyaya, sui-istifadə və digər qanunazidd, xoşagəlməz hallara qarşı mübarizədə vətəndaş cəmiyyətinin və ictimai nəzarətin artırılmasına da önəm verir. "Polisə Dəstək" İctimai Birliyi Prezidentin ifadələrinə yüksək dəyər verərək və vətəndaş cəmiyyətinin fəal iştirakçısı olaraq bəyan edir ki, dövlətin apardığı siyasəti birmənalı şəkildə dəstəkləyir, bu islahatlara qarşı olanlara ictimai nəzarət gücləndirilməli, hər cürə qanunazidd hallarla mübarizədə dövlətin müvafiq qurumlarına dəstək verilməlidir. Biz, Prezidentin vurğuladığı kimi, islahatlara alternativi olmayan bir yolun yolçusuyuq və bu yolda birgə addımlayacağıq.

# Hacıbala Abutalıbov və Əli Həsənov vəzifədən azad olunmalarını Prezidentdən xahiş etdilər

**Prezident İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş nazirinin müavinləri Əli Həsənovu və Hacıbala Abutalıbovu vəzifədən azad edilmələri ilə bağlı verdikləri ərizələrlə əlaqədar qəbul edib.**

Prezident Hacıbala Abutalıbovun və Əli Həsənovun Azərbaycan Respublikası Baş nazirinin müavinləri vəzifələrindən azad edilməsi haqqında sərəncamlar imzalayıb.

Sərəncamlar imzalandığı gündən qüvvəyə minir.



# Əli Kərimlinin nalayiq söyüşlər işlətdiyi və iki polis əməkdaşına xəsarət yetirdiyi rəsmi bəyan edildi



Belə ki, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurumun üzvləri 2019-cu il oktyabrın 19-da paytaxtın mərkəzi ərazilərindən birində mitinq keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib. Müraciətə baxılaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun müvafiq tələblərinə əsasən ictimai asayişin pozulmasının qarşısının alınması, iğtişaş və cinayətlərin baş verməməsi, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə aksiyanın keçirilməsi üçün Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun təlim bazası təklif olunub.

Oktyabrın 19-da Milli Şura adlandırılan qurumun üzvləri, eləcə də özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi təqdim edən Əli Kərimli, həmin qurumun rəhbərliyində təmsil olunan şəxslər və digər destruktiv qruplar paytaxtın mərkəzi hissəsində razılaşdırılmamış, qanunsuz kütləvi aksiya keçiriləcəyi təqdirdə qarşısının alınacağı və baş verə biləcək ictimai qayda pozuntularına görə məsuliyyət daşıyacaqları barədə Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun xəbərdarlığından nəticə çıxarmayaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinin tələblərinə zidd olaraq, Bakı Metropoliteninin "28 May" stansiyasının ətrafında razılaşdırılmamış mitinq keçirməyə və ictimai asayişi pozmağa cəhd göstəriblər.

Paytaxtın hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən həmin qanunazidd hərəkətlərin qarşısı alınıb, toplantıların təşkili və keçirilməsi qaydasının tələblərini pozduqlarına görə 60 şəxs barəsində inzibati xətalar haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Qanunsuz aksiya zamanı Əli Kərimli yaşadığı evdən çıxaraq razılaşdırılmamış mitinqin keçirildiyi əraziyə doğru irəliləyib açıq çağırışlar etdiyindən, onun ictimai qaydanı qəsdən pozmaq cəhdinin, insanlar arasında yarana biləcək qarşıdurmanın, əhalinin rahatlığının pozulmasına yönələn hərəkətlərinin qarşısını almaq və inzibati məsuliyyətə cəlb etmək məqsədilə ərazidə xidmət edən polis əməkdaşları onu xidməti avtobusa mindiriblər. Həmin vaxt Əli Kərimli polis əməkdaşlarının qanuni tələblərinə tabe olmamaqla ifadə olunan hərəkətlərə yol verərək, onların ünvanına nalayiq söyüşlər işlədib, iki polis əməkdaşına müqavimət göstərərək onlara xəsarətlər yetirib, müqavimətini davam etdirib polis əməkdaşlarını itələyərək avtobusdan enməyə və provokasiyaya cəhd edərək baş nahiyəsini avtobusun dəmir barmaqlıqlı qapısına bir neçə dəfə vurub, nəticədə alın nahiyəsindən xəsarət alıb.

Bundan sonra barəsində qanunamüvafıq tədbir görülməsi üçün Xətai Rayon Polis İdarəsinə gətirilmiş Əli Kərimliyə dərhal ilkin tibbi yardım göstərilib, məhkəmə-tibb eksperti tərəfindən müayinə edilib və baş nahiyəsində olan xəsarətin xarakterinə və lokalizasiyasına görə polis əməkdaşlarına müqavimət göstərərkən özü tərəfindən avtobusun dəmir barmaqlıqlı qapısına vurması nəticəsində törənməsi ekspertiza rəyində öz əksini tapıb. Daha sonra Əli Kərimli DİN-in hospitalında müayinədən keçirilib və nəticədə heç bir patoloji hal aşkar edilmədiyindən ona xəbərdarlıq elan edilərək evinə buraxılıb.

Həmçinin Əli Kərimlinin müqavimət göstərdiyi polis əməkdaşları məhkəmə-tibb eksperti tərəfindən müayinə edilib və onların bədəni üzərində göstərilən şəraitdə yetirilməyə xarakterik xəsarətlər müəyyən edilib.

Bununla yanaşı qeyd olunmalıdır ki, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə paytaxtın mərkəzi hissəsində razılaşdırılmamış və qanunsuz təşkil edilmiş kütləvi aksiyanın qarşısı alınarkən polis əməkdaşları tərəfindən güc tətbiq edilməsi barədə paylaşılmış məlumatlar tamamilə əsassız olmaqla Baş Prokurorluq tərəfindən təkzib olunur.

Belə ki, qanunverciliyin müəyyən etdiyi hədlərdə və vasitələrlə fiziki qüvvə tətbiqi polis əməkdaşlarının qanuni tələblərini icra etməyən inzibati xəta və ya cinayət törətmiş şəxslərin tutulması, eləcə də hüquqpozmaların törədilməsi zamanı onlara qarşı güc işlədilməsi hallarında nəzərdə tutulur. Məlum qanunsuz təşkil edilmiş aksiyanın qarşısının alınması zamanı polis əməkdaşları tərəfindən həmin qanunvericiliyin pozulması hallarına yol verilmədiyi və ümumiyyətlə hər hansı xüsusi vasitələrdən istifadə edilmədiyi müəyyən edilib. Polis əməkdaşları tərəfindən hər hansı güc tətbiqinə və zorakı hərəkətlərə yol verilməyib.

# 21 oktyabr 1987-ci il - SSRİ tarixində və Heydər Əliyevin biografiyasında dünyanın diqqətini çəkən dəyişiklik günü...

**1987-ci ilin bu günü SSRİ-də yaşayan ermənilər və digər anti-Azərbaycan qüvvələr xüsusi sevinc hissinə qərq olmuşdular. Çünki həmin gün görkəmli siyasi və dövlət xadimi, SSRİ-nin ən qüdrətli liderlərindən biri kimi tanınan Heydər Əliyev Mixail Qorbaçovun yürütdüyü yanlış xəttə, onun anti-Azərbaycan və anti-müsəlman siyasətinə etiraz əlaməti olaraq tutduğu bütün vəzifələrdən istefa vermişdi.**

Baki-xeber.com xəbər verir ki, bu fikir Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.

Statusda daha sonra deyilir:

Məlum olduğu kimi, Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. O, həmin yüksək vəzifədə çalışdığı dövrdə 60-dan çox ümumittifaq nazirliklərinin, komitə və digər mərkəzi idarələrin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirmiş və bu sahələrin işinə əsl dinamizm gətirmişdir.

Heydər Əliyevin istefaya göndərilməsinin əsas səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini o zaman ələ almış erməni lobbisinin təsiri və təzyiqi idi. Elə onun SSRİ rəhbərliyindən kənarlaşdırılmasından dərhal sonra ermənilər Mixail Qorbaçovun xeyir-duası ilə Qarabağ avantürasına start vermiş, qısa müddət sonra isə, 18 noyabr 1987-ci ildə Qorbaçovun müşavirlərindən olan akademik Abel Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırmışdı.

Azərbaycanın ərazi bütövlüyünün pozulması, ermənilərin respublikamızın ərazisinin bir hissəsini işğal etməsi planı xeyli əvvəllərdən hazırlanmışdı. Həm də bu plan təkcə Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə oturan ermənilər və ermənipərəst qruplar tərəfindən deyil, bütün dünyadakı anti-Azərbaycan və anti-türk dairələr tərəfindən müdafiə edilirdi, onu həyata keçirmək üçün ciddi hazırlıq işləri görülürdü. Heydər Əliyevin Kremldə, SSRİ-nin əsas rəhbərlərindən biri olması qarşıda dayanan ən əsas maneə idi. Odur ki, Qorbaçov ermənilərin təhriki ilə, ilk növbədə Heydər Əliyevin Kremldən uzaqlaşdırılmasına çalışırdı və iki il müddətində bu istiqamətdə açıq-aşkar formada xüsusi canfəşanlıq göstərirdi. Təsadüfi deyil ki, Qorbaçov Heydər Əliyevə istefaya getməsini təklif edəndə, Ulu Öndər bu təklifə görə heç təəcüblənmədiyini bildirmiş, böyük mətanət hissi və soyuqqanlılıqla illərdir rəhbər şəxslərdən biri olduğu SSRİ rəhbərliyindən ayrılmışdı. SSRİ kimi böyük bir ölkədə vicdanla işləyən, işində heç vaxt ciddi qüsuru olmayan, bütün dünyada böyük siyasətçi və bacarıqlı təşkilatçı kimi tanınan, əhali arasında böyük siyasi nüfuza malik olan belə bir görkəmli siyasi və dövlət xadiminin istefaya göndərilməsi haqda məlumatlar ildırım sürətilə bütün dünyaya yayılmış və böyük təəssüf doğurmuşdu.

SSRİ-yə rəhbərliyi dövründə Heydər Əliyev təkcə istedadlı idarəçiliyi və uzaqgörən siyasəti ilə bütün sovet vətəndaşlarının rəğbətini qazanmamışdı, o, həm də uzun müddət Kremldə bütün türk-müsəlman xalqlarının himayədarı, onlara qarşı mərkəzi hakimiyyət dəhlizlərində hazırlanan əksər məkrli planların qarşısına keçilməz sədd çəkən qətiyyətli və vətənpərvər bir insan kimi sevilirdi. Azərbaycana qarşı hazırlanan və həyata keçirilməsi üçün məqam gözlənilən bütün məkrli planların reallaşmasına da məhz Heydər Əliyev mane olurdu. Əlbəttə ki, onun belə qətiyyətli siyasi mövqeyi SSRİ rəhbərliyində təmsil olunan anti-Azərbaycan qüvvələrdə ciddi narahatlıq doğururdu. Qeyd etməliyəm ki, o dövrdə Sov.İKP MK Siyasi Bürosunun üzvü, siyasi rəhbərlikdə böyük nüfuz sahibi olan Heydər Əliyevin tez-tez dəyişilən SSRİ rəhbərliyində birinci şəxs olması ideyası da artıq xalq içərisində, yüksək dairələrdə müzakirə edilir və etiraf edilirdi. SSRİ-nin görkəmli siyasi xadimlərindən olan Andrey Qromıko öz oğlu ilə söhbətində qeyd edirdi ki, "Bizim Siyasi Büroda ancaq üç adam nisbətən cavandır: Romanov, Qorbaçov və Əliyev. Axırıncı mənə daha xoş gəlir. Onun vaxtında Azərbaycan, xüsusən onun kənd təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Əliyev gözəl təşkilatçıdır, təmiz və abırlı adamdır. Amma təəssüf ki, onun namizədliyi istisna olunur...". Oğlunun "Nəyə görə, milliyyətinə görəmi?" - sualına cavabında A. M. Qromıko açıq şəkildə etiraf etmişdi: - "Bu məsələdə - hə. Milliyyətinə görə".



Beləliklə, 21 oktyabr 1987-ci ildə Heydər Əliyevin istefaya məcbur edilməsi ilə həm onun dinamik sosial-iqtisadi rəhbər fəaliyyətindən bəhrələnən bütün sovet vətəndaşları, həm çoxmillətli SSRİ-nin ədalətli millidini siyasətinin əsas qarantlarından biri kimi çıxış etməsindən faydalanan müttəfiq və muxtar respublikaların qeyri-rus əhalisi, həm də, ilk növbədə canından çox sevdiyi doğma xalqı- Azərbaycan Respublikasnın vətəndaşları özlərinin əsl himayədarını itirdilər. Əlbəttə ki, Heydər Əliyevin istefası qeyd etdiyim bütün kateqoriyadan olan insanlar üçün böyük itki oldu. Lakin onun istefasından ən çox ziyan görən əlbəttə ki, doğma Azərbaycan oldu. İstefadan az keçməmiş xalqımız üçün heç də xoş olmayan məkrli ssenarilər dövriyyəyə buraxıldı və anti-Azərbaycan planlara start verildi. Amma, dahi şəxsiyyət və fenomenal siyasətçi kimi, Ulu Öndər geri çəkilmədi, ruhdan düşmədi, məğlub olmadı, xalqının ağır günlərində xilas meydanına atılaraq, öz tarixi missiyasını həyata keçirdi. Azərbaycanı bir dövlət olaraq parçalanma və məhvolmadan xilas etdi,müstəqil dövlət yaratdı, vətəndaş həmrəyliyinə və dövlətçilik ətrafında xalqın monolit birliyinə nail oldu.

**Məlum olduğu kimi, Bakının mərkəzində keçirilən icazəsiz aksiya ilə bağlı nəticələrə tələm-tələsik reaksiya verənlərdən biri də Avropa İttifaqı olub. Ancaq Azərbaycan XİN Avropa İttifaqının bəyanatına münasibətdə faktların təhrif olunduğunu bildirib.**

# Avropa Birliyinin 19 oktyabr aksiyasına ikili standart yanaşması - aşkar yalan...

## *Elşən Həsənov: "Biz çox istərdik ki, Aİ Dağlıq Qarabağla bağlı olan haqsızlıqlara belə operativ mövqe ortaya qoysun"*



Qurumun sözçüsü L.Abdullayeva deyib ki, qanunsuz aksiya keçirən şəxslərin əksəriyyəti rəsmi xəbərdarlıq edildikdən sonra sərbəst buraxılıb: "Azərbaycanda sərbəst toplaşma azadlığı təmin olunub. Milli Şuranın oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyəti ilə Azərbaycan Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə 50 nəfərin iştirakı ilə piket keçirməsi Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb. Buna baxmayaraq, onlar həmin ərazidə faktiki olaraq küçə yürüşü keçirməyə cəhd ediblər. "Sərbəst toplaşmaq haqqında" Qanunun 9-cu maddəsinin III hissəsinin 1-ci bəndinə əsasən, müvafiq ali hakimiyyət binalarının 200 metr radiusunda keçirildiyi təqdirdə, mitinqlər, nümayişlər, küçə yürüşləri qadağan oluna bilər. Milli Şuranın oktyabrın 19-da, saat 15-dən 17-dək mitinq keçirilməsi ilə bağlı müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılıb. "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edildiyindən, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən mitinqin qeyd olunan vaxtda Bakı şəhəri Lökbatan qəsəbəsi, 28 May küçəsindəki "Neftçi" idman klubunun Qaradağ təlim idman bazasında keçirilməsi təklif olunub. Buna baxmayaraq, şəhərin mərkəzi hissəsində qanunsuz aksiyanın keçirilməsinə cəhd olunub".

XİN mətbuat xidmətinin rəhbəri nəzərə çatdırıb ki, polis qurumları tərəfindən qanunsuz aksiyanın qarşısı alınıb: "Polis kübar və mədəni davranış nümayiş etdirib, heç bir insan xəsarət almayıb. Avropa İttifaqı tərəfindən bu gün Barselonada baş verən hadisələrə, o cümlədən, dinc nümayişçilərə qarşı polis tərəfindən rezin güllələrdən istifadə olunması, mətbuat nümayəndələrinin döyülməsi, həddən artıq şiddətdən istifadə olunması hallarına nəzər yetirilməsi yaxşı olardı. Fransada aylar ərzində nümayişçilərə qarşı tətbiq olunan polis qəddarlığı bütün insani davranış normalarını aşıb. 11 nəfər öldürülüb, minlərlə insan xəsarət alıb. Gözlərini itirmiş, şikəst olmuş insanlar var. Təəssüf ki, bu kimi hallarda da ikili standartlar tətbiq edilir. Polisin mədəni davranışına xələl gətirilir. Avropa İttifaqı tərəfindən öz burnunun ucunda olan hadisələrə göz yumulur. Azərbaycanla bu dildə və tərzdə danışmağa icazə verilə bilməz".

Rəsmi şəxsin verdiyi açıqlamadan görünür ki, Avropa İttifaqı bu məsələyə ikili standartla yanaşıb və ciddi təhrifə yol verib. Maraqlıdır ki, Ermənistanda baş verən aşkar qanun pozuntuları ilə bağlı biz Avropa İttifaqından belə operativlik görə bilmirik. Həmçinin, Avropanın özündə etirazların dağıdılması ilə bağlı tətbiq olunan zor hərəkətlərinə Strasburqun susqun mövqeyinin şahidi oluruq. Onda isə maarqlıdır, Avropa İttifaqının Azərbaycanla bağlı operativ, lakin yanlış reaksiyasını necə dəyərləndirmək olar?

*"Təəssüf ki, qurum ikili standartların təsirindən uzaqlaşa bilmir"*

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa İttifaqının bu məsələdə də tələskənliyə yol verməsi başadüşüləndir: "Təəssüf ki, onlar əksər vaxtlarda ikili standartlarla məsələlərə yanaşırlar. Bunu bizim indiyə qədər gördüyümüz faktlar da aydın söyləyir. Ermənistanda Paşinyan meydanda insanları toplayıb inqilab edəndən sonra nələr yaşandı? Demək olar ki, zor gücünə özünü Baş nazir seçdirdi, Venesiya Komissiyasının bütün tövsiyələrini kənara atdılar. Baxın görün, Avropa Birliyi belə operativlik nümayiş etdiribmi? Görə bilməzsiniz. Çünki onlar Azərbaycanla bağlı əllərinə keçirmək üçün bir təzyiq mexanizmi axtarırlar. Bakıda nə baş verib? Hansısa siyasi təşkilat şəhərin mərkəzində icazəsiz etiraz aksiyası keçirmək istəyib. Polis asayişi qorumamalıdır? Avropanın özündə niyə bu kateqoriyadan olan adamların üstünə atla yeriyirlər? Niyə etirazçılara qarşı hətta odlu silahdan da istifadə olunur? Avropa Birliyi yaxşı olar ki, bu suallara cavab tapsın.

Mən hakimiyyətin müdafiəçisi deyiləm. Mərkəzçi mövqedən olan bir partiyanın sədriyəm. Bizim də narazılıqlarımız var. Onları sosial şəbəkələrdə, görüşlərdə ifadə edirik. Ancaq hesab edirik ki, izdihamlı mitinq keçirməyə hələ yetərli gücümüz yoxdur. Elektoratına arxayın olmayan partiyalar belə addımlar ata bilər. Şəhərin mərkəzində mitinq təyin etmək o deməkdir ki, ora təsadüfi adamların daha çox toplaşmasını hədəfləyirlər. Ona görə də polis buna icazə vermir. Bu cür aksiyalar partiyaya heç bir dividend vəd etmir. Yaxşı olar ki, elektoratlarını artırmaq üzərində çalışsınlar. Avropa İttifaqı ilə Azərbaycanın rəsmi mövqeyinin üst-üstə düşməməsi sübut etdi ki, qurum aşkar yalana yol verib. Biz çox istərdik ki, Aİ Dağlıq Qarabağla bağlı olan haqsızlıqlara belə operativ mövqe ortaya qoysun. Təəssüf ki, qurum ikili standartların təsirindən uzaqlaşa bilmir".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, ötən həftənin son günləri Bakıda iki icazəsiz aksiya keçirildi. Biri oktyabr ayının 19-da "Milli Şura"nın razılaşdırılmamış mitinqi idi. Həmin günün səhərisi isə bir qrup feminist qadın Bakının Nizami küçəsində, "Torqovı" adlanan ərazidə aksiya keçirib.**

# Azərbaycanda media azadlığını qaralayan xaricilərə daha bir fakt - iki gün icazəsiz aksiyalarda jurnalistlər tam toxunulmaz işlədilər

## *Azər Həsrət: "Sosial şəbəkə vasitəsilə çoxsaylı jurnalistin öz fəaliyyətini rahat və maneəsiz şəkildə həyata keçirdiyinin şahidi olmuşam"*



Aksiya iştirakçıları qadınlara qarşı zorakılıq edilməsini və qadınların qətlə yetirilməsini pisləyib, "Şiddətə susma!", "Şiddətə dözmə!" şüarları səsləndiriblər. Qeyd edək ki, hər iki mitinqdə polis icazəsiz aksiyanın qarşısını alıb. Aksiya zamanı heç bir insident baş verməyib.

Məlumdur ki, aksiyanı işıqlandırmaq üçün mitinqin keçirildiyi məkanda jurnalistlər də iştirak edirdi. Reportaj hazırlamaq üçün gələn jurnalistlərin tam əksəriyyəti mitinq zamanı üzərində "Press" yazılmış gödəkçələrdə olublar. Ümumən jurnalistlərin aksiyanı işıqlandırmaları üçün şərait yaradıldı. Ancaq aksiya ilə bağlı bir sıra təhlükəsizlik xarakterli məhdudlaşdırıcı tədbirlər, eyni zamanda, media mənsublarına da tətbiq edildi, belə məhdudiyyətlər peşəkar jurnalistlər tərəfindən anlayışla qarşılandı. Bununla belə, bu tələbə məhəl qoymayanlar və ya "yalançı gödəkçələrdə" gələnlər də az deyildi.

Ümumiyyətlə, aksiyada iştirak edən jurnalistlərə peşə fəaliyyətlərini yerinə yetirilmələri üçün hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən hər bir şərait yaradılmışdı. Ancaq müxalifət düşərgəsində olan bəzi şəxslər sosial şəbəkə vasitəsilə jurnalistlərə öz fəaliyyətlərini icra etmələri üçün şərait yaradılmadığını, maneçilik törədildiyini iddia edirlər. Müşahidələr və hər iki aksiyada iştirak edənlər bunun tam əksini bildirir.

*"Aksiyanı işıqlandıran jurnalistlərə hüquq-mühafizə orqanlarının əməkdaşları mane olmurdu, əksinə, onlara peşə fəaliyyətlərini yerinə yetirmələri üçün şərait yaradırdı"*

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, aksiyanı işıqlandıran jurnalistlərə hüquq-mühafizə orqanlarının əməkdaşları mane olmurdu. Əksinə, hər iki mitinqi işıqlandıran media əhli aksiyanın gedişatını ictimaiyyətə çatdırmaq üçün mütəmadi olaraq canlı yayımlar açırdı: "Elə özüm də evimdə oturaraq jurnalistlərin aksiyadan canlı paylaşımlarını izləyirdim. Sosial şəbəkə vasitəsilə çoxsaylı jurnalistin öz fəaliyyətini rahat və maneəsiz şəkildə həyata keçirdiyinin şahidi olmuşam. Görüntülərdən açıq-aşkar bəlli olur ki, polislər jurnalistlərə heç bir maneçilik törətməyiblər. Polislər media əhlinə öz fəaliyyətini sərbəst şəkildə həyata keçirmək üçün şərait yaradırdı".

***Günel CƏLİLOVA***








# Azərbaycanı qaralayan Avropanın özündə polis aksiyaçılarla belə davranır...

**Məlum olduğu kimi, Əli Kərimlinin rəhbəri olduğu AXCP və Cəmil Həsənlinin sədrlik etdiyi "Milli Şura" oktyabr ayının 19-da Bakının mərkəzində icazəsiz etiraz aksiyası keçirməyə cəhd edib. Qeyd edək ki, onlar bu addımı şəhərin mərkəzində icazəli etiraz aksiyası üçün yer verilmədiyi ilə izah etməyə çalışırlar.**



Bakı meriyası aksiya keçirmək istəyənlərə Qaradağ rayon ərazisində yer ayırsa da, onlar bundan imtina edib, şəhərin mərkəzində xaos yaratmağı üstün sayıblar. Nəticədə etirazçılar polislə üz-üzə gəlməli olublar. Təbii ki, polis da asayişi pozanlarla bağlı lazımi ölçü götürməlidir. Polisin qanun çərçivəsində atdığı addımlar bəzi radikal dairələr tərəfindən zorakılıq, işğəncə kimi dəyərləndirilməyə çalışılır. Ancaq biz analoji vəziyyətlə bağlı ABŞ və Avropanın bəzi ölkələrində olan icazəsiz etiraz aksiyalarında polisin davranışlarına fikir versək görərik ki, Azərbaycan polisi həddən artıq humanist və təmkinli davranış ortaya qoyub. Dünya ölkələrində də icazəsiz aksiyalar, qanunsuz piketlər məqbul sayılmır.

*(Ardı 6-cı səh.)*






















*(Əvvəli 5-ci səh.)*

Dünyada, demokratik ölkələr sayılan əksər dövlətlərdə belə hallar zamanı necə davranmaqla bağlı çoxlu misal var. Bu cür aksiyalar, mitinqlər xaos yaratmaq kimi dəyərləndirilir.

Ötən ilin dekabrında Fransada qiymət artımına qarşı keçirilən "Sarı jiletlilər"in nümayişləri zamanı polisin vətəndaşlara zor tətbiq etməsinə aid çoxlu sayda foto jurnalistlərin obyektivinə düşüb.

2019-cu il mayın 1-də Parisdə 1 May münasibətilə keçirilən mitinqdə polis nümayişçilərə zor tətbiq edib.

Avropanın digər ölkəsi İtaliyada da polislər qanunsuz aksiyalar zamanı zor tətbiq edirlər.

Ümumiyyətlə, Avropa son illər polis zorakılığının ən çox tətbiq edildiyi regionlardan birinə çevrilib.

Bir neçə il öncə Frankfurt, London, Madrid, Lissabon kimi iri şəhərlər Avropa Mərkəzi Bankının fəaliyyətinə olan etiraz dalğalarından silkələnmişdi.

Buna görə Almaniyanın Frankfurt şəhərində "Blockupy" hərəkatı zamanı kütləvi aksiyalar təşkil edilirdi. Həmin zaman da polisin etirazçılarla sərt davranışına dair çoxlu sayda fakt var.

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan polisinin davranışları tam qanunauyğun idi: "Hətta mən deyərdim ki, bir qədər də humanist idi. Qanuna tabe olmayan vətəndaşın qolunu burub maşına salmaq nə vaxtdan işgəncə və ya vəhşilik sayılıb? Söhbət polisin xidmət borcundan gedirsə, ona uyğun davranıblar. Amma "Polis haqqında" Qanunu açıb oxusalar, özləri də görəcək ki, polisin işi cinayətkarlığa qarşı mübarizə ilə yanaşı, həm də əhalinin dincliyini təmin etmək, kütləvi iğtişaşların qarşısını almaqdır. Dünyanın hər yerində qayda belədir. Ona görə də oturub-durub polisi pisləmək lazım deyil. Pislənilləsi bir məqam varsa, o da aksiyanı şəhərin mərkəzinə salıb bütün hərəkəti iflic etmək, başqalarını da bu oyuna qatmaqdır".

Biz Avropanın bəzi ölkələrində icazəsiz aksiyaların iştirakçıları ilə polisin rəftarına dair müqayisəli fotoları təqdim edirik, qoy baxanların özü nəticə çıxarsın və görsünlər ki, əslində, Azərbaycan polisi əsl humanizm nümayiş etdirib.

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, oktyabrın 19-da özünü demokratik qüvvələrin "Milli Şura"sı adlandıran qurumun üzvləri Bakının mərkəzində qanunsuz aksiya keçirməyə cəhd ediblər. Sayları təxminən 220 nəfərədək olan radikallar bir neçə qrup halında "28 May" metrostansiyasının önündəki meydana daxil olmağa çalışıblar.**

# 19 oktyabr aksiyasının radikallar üçün rüsvayçı təzahürləri...



## *Aydın Hüseynov: "Onların məqsədi Azərbaycanın imicinə zərər gətirmək, ölkədə olan sabitliyi pozmaqdır"*

Əraziyə cəlb olunan polis əməkdaşları tərəfindən hüquqazidd hərəkətlərin genişlənməsinin qarşısı alınıb, nəticədə qanunsuz aksiyanın təşkilatçıları və fəal iştirakçıları daxil olmaqla bir neçə nəfər saxlanıb.

Radikal müxalifətin oktyabrın 19-da Bakıda qanunsuz mitinq keçirməyə cəhd etməsinin məqsədi ölkədə gərginlik, qarşıdurma yaratmaq idi. Ancaq bu dəfə də onlar biabırçı məğlubiyyətlə üzləşdilər. Ən azından ona görə ki, aksiyaya ictimai dəstək olmadı. Həmin qüvvələr, həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa düçar oldular. Xalq tərəfindən boykot edildilər.

Azərbaycan demokratik, hüquqi dövlətdir, ölkə qanunlarla idarə olunur. Hansı mövqedə olmasından asılı olmayaraq, hər bir fərdin hüquq və azadlıqları təmin edilir. Mövcud qanunlarla və Konstitusiya ilə qorunur. O cümlədən, ölkədə sərbəst toplaşmaq azadlığı hüququ tam təmin edilir. Bakı Şəhər İcra Hakimiyyəti sərbəst toplaşmaq azadlığının təmin edilməsi və reallaşdırılması üçün də müvafiq yerlər ayırıb. Ancaq radikal müxalifət nümayişkaranə şəkildə bundan imtina etdi. Çünki bilirdilər ki, ora getsələr, daha da biabırçı duruma düşəcəklər. Təbdirlərinə ən yaxşı halda min-iki mindən artıq adam qatılmayacaq. Ona görə də məkan, yer məsələsini növbəti dəfə bəhanə gətirərək, qarşıdurma, gərginlik yolunu tutdular. Qanunsuz aksiyaya cəhd etməklə, digər vətəndaşların hüquqlarını pozdular. Bu isə onları daha da biabır etdi və radikal müxalifətin iç üzünü ortaya qoydu.

Bütün hallarda, 19 oktyabr aksiyasının radikallar üçün rüsvayçı təzahürlərini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, radikallar, həmişə olduğu kimi, bu dəfə də biabırçı məğlubiyyətlə üzləşdilər: "Çünki xalq onları dəstəkləmir. Onların təşkil etdiyi aksiyalara qoşulmur. Radikal müxalifət oktyabrın 19-da keçirdiyi qanunsuz aksiya ilə növbəti dəfə ictimai asayişi və qanunu pozdu. O da məlumdur ki, radikal müxalifətə mitinq keçirmək üçün müvafiq yer ayrılıb. Ancaq onlar ayrılmış yerə getmədilər və kiçik qrupla şəhərin mərkəzində hay-küy qopardılar. Bu da təbii ki, yolverilməzdir. Azərbaycanın bütün sahələr üzrə inkişaf etdiyini, nüfuzunu durmadan artırdığını, dünya birliyində söz sahibinə çevrildiyini görürük. Bunu gözü götürməyən radikallar təxribat yaratmaq istəyirlər. Onların məqsədi Azərbaycanın imicinə zərər gətirmək, ölkədə olan sabitliyi pozmaqdır. Məlumdur ki, radikallar bu tapşırıqları xaricdəki havadarlarından alırlar. Lakin, həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa düçar oldular. Azərbaycan ictimaiyyəti onların səsinə səs vermədi, bütün bu olanları, Əli Kərimli başda olmaqla, qaragüruhun hamısını pislədi. Nəticədə radikal müxalifət növbəti dəfə rüsvayçılıqla üzləşərək biabır oldu".

> *"Ölkə ictimaiyyəti onların səsinə səs vermədi, bütün bu olanları, Əli Kərimli başda olmaqla, qaragüruhun hamısını pislədi"*

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, oktyabrın 20-də bir qrup feminist qadın Bakının Nizami küçəsində, "Torqovı" adlanan ərazidə aksiya keçirib. Aksiya iştirakçıları qadınlara qarşı zorakılıq edilməsini və qadınların qətlə yetirilməsini pisləyib, "Şiddətə susma!", "Şiddətə dözmə!" şüarları səsləndiriblər.**

# Bakıda qadın aksiyaçıların polisi açıq-aşkar təxribata çəkmək cəhdləri baş tutmadı...

## *Şəmsəddin Əliyev: "Bu, açıq-aşkar, onu göstərir ki, şüurlu şəkildə polisi təxribata çəkib imicinə kölgə salmaq istəyirlər"*

> *"Polisin qanundan irəli gələn tələblərə uyğun olaraq öz vəzifə öhdəliklərini yerinə yetirməsi bəzi dairələri narahat edir"*



Onlar Azərbaycanın məişət zorakılığına qarşı mübarizəni nəzərdə tutan İstanbul Konvensiyasına qoşulmasını tələb ediblər. Polis icazəsiz aksiyanın qarşısını alıb.

Aksiyada diqqətçəkən məqamlardan biri də iştirakçıların polisə münasibətdə sərgilədikləri əsassız aqressiv münasibət idi. Belə ki, açıq-aşkar polisi təxribata çəkməyə cəhd edilirdi. Məlum məsələdir ki, sözügedən aksiya icazəsiz olduğuna görə qanun keşikçiləri bunun qarşısını almalı idi. Polislər də qanunun onlara verdiyi səlahiyyətlər çərçivəsində bunu etdilər. Ancaq görüntülərə baxanda məlum olur ki, aksiya iştirakçıları qanunun tələblərinə əməl etmək əvəzinə, polisə qarşı aqressiv münasibət sərgiləyir, kobudluq göstərirlər. Sanki bəzi qadınların ailə-məişət zəminində zorakılığa, ayrıseçkiliyə məruz qalmasının günahkarı polisdir, guya polislərin üzündən hansısa qadınlar zorakılığa məruz qalır və s. Hansı ki, ölkə polisi bütün mümkün qanuni vasitələrlə qadınların hüquqlarının qorunmasına çalışır. Aksiyanın keçirilməsi icazəsiz olduğuna görə, təbii ki, polis bunun qarşısını almalı idi. Belə olan halda, polisə qarşı sərgilənən kobudluq və onları təxribata çəkmək cəhdi heç bir əndazəyə sığmır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyevin sözlərinə görə, bir qrup feminist qadının polisi təxribata çəkmək cəhdi heç bir məntiqə sığmır: "Bunun özü çox böyük kobud qanun pozuntusu idi. Tutaq ki, bununla bağlı cəmiyyətdə hansısa problemlər mövcuddur. O zaman polisin bunda nə günahı var? Məgər polis bu problemləri yaradır? Təbii ki, yox. Belə olduqda polisə qarşı bu aqressiyanın haradan qaynaqlanması haqda suallar yaranır. Bu, açıq-aşkar, onu göstərir ki, şüurlu şəkildə polisi təxribata çəkib imicinə kölgə salmaq istəyirlər. Çünki polisin qanundan irəli gələn tələblərə uyğun olaraq öz vəzifə öhdəliklərini yerinə yetirməsi bəzi dairələri narahat edir. Xüsusən də xaricdəki dairələri. O üzdən, belə təxribatlara əl atırlar. Digər tərəfdən, Azərbaycanda əvvəlki kimi ailə-məişət zəminində zorakılıqlar baş vermir. Yəni belə halların sayı xeyli azalıb. Bu gün icra strukturlarında, təhsil, səhiyyə sahələrində, hakimiyyətin digər strukturlarında kifayət qədər sayda qadın çalışır. Belə olan halda, sözügedən aksiyanı keçirməyə heç bir əsas yox idi. Azərbaycan polisinə sərgilənən o cür münasibət isə, açıq-aşkar, təxribat idi. Nəzərə almaq lazımdır ki, əhalinin polisə etimad və inamı artıb. Bunu tək biz demirik. Bir sıra beynəlxalq sənədlərdə də bu öz əksini tapıb. Belə görünür ki, bəzi dairələri bütün bunlar narahat edir. Onlar bunu həzm etmək istəmirlər. Ona görə də istəyirlər ki, qanunun tələbinə əməl olunmasın və polisi qarşıdurmaya təhrik edib hörmətdən salsınlar. Buna da nail ola bilməyəcəklər. Kimin nə deməsindən, necə davranmasından asılı olmayaraq, ölkə polisi qanun çərçivəsində öz işini görəcək".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, oktyabrın 19-da "Milli Şura", 20-də isə bir qrup feminist qadın Bakıda icazəsiz aksiya keçirməyə cəhd etdi. Hər iki qanunsuz aksiya cəhdində polis yüksək peşəkarlıq göstərdi. Müxtəlif təhrikedici və provokasiya xarakterli addımların atılmasına rəğmən, polis işçiləri buna uymadı. Aksiya zamanı lentə alınan bir sıra görüntülər də bunu sübut etdi.**

# Qanunsuz radikal aksiya iştirakçıları ilə polisin qanuni davranışları - 19 və 20 oktyabrda...

## *Vüqar Rəhimzadə: "Son qanunsuz aksiyalarda müxtəlif vasitələrlə istədilər ki, ölkə polisini provokasiyaya çəksinlər"*

> *"Polis nümunəvi davranış sərgiləyərək öz qanuni vəzifə borcunu yerinə yetirdi"*




Kadrlardan aydın görünür ki, polis əməkdaşları qabaqcadan dəfələrlə xəbərdarlıq olunmasına baxmayaraq, ictimai asayişi pozmağa çalışan şəxsləri saxlayır, onların şəhərin mərkəzində qarşıdurma yaratmağa hesablanmış təxribat cəhdlərinin qarşısını alırlar. Hətta qanunsuz aksiyanın bəzi iştirakçıları xidməti vəzifəsini yerinə yetirən polis əməkdaşlarını təhqir edərək onlara hücum çəkir, iğtişaş yaratmağa çalışırlar. Lakin bütün bu təxribatçı cəhdlərə, hücumlara rəğmən, asayiş keşikçiləri mümkün qədər təmkinli davranmaqla üzərlərinə düşən vəzifəni yüksək peşəkarlıqla yerinə yetirdilər.

Vətəndaşların təhlükəsizliyini qoruyan Azərbaycan polisi bu dəfə də proseslərdən üzüağ çıxdı. Heç bir provokasiyaya getməyərək öz qanuni vəzifələrini yerinə yetirdi. Bununla polis işçiləri növbəti dəfə nümunəvi davranış sərgilədilər. Göstərdilər ki, qanunun aliliyi hər şeydən üstündür. O baxımdan qanunsuz radikal aksiya iştirakçıları ilə polisin qanuni davranışlarını və bu məsələdə nümayiş etdirdiyi yüksək peşəkarlığı ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, hər iki aksiyada polisin sərgilədiyi davranış Azərbaycan polisinin yüksək peşəkarlığının göstəricisi idi: "Nəzərə alsaq ki, hər iki aksiya qanunsuz idi, o zaman bunun necə böyük məsuliyyət kəsb etdiyini təsəvvür etmək çətin deyil. Dünyanın bütün ölkələrində polis asayişin müdafiəsində çox fəal iştirak edir. Əminəm ki, belə icazəsiz aksiyaya cəhd başqa ölkədə olsaydı, o zaman polis qat-qat sərt davranardı. Müqayisə üçün baxsaq görərik ki, Avropanın ən inkişaf etmiş ölkələri olan Fransa və İspaniyada polisin aksiya iştirakçılarına münasibəti necədir. Görüntülərə baxanda məlum olur ki, bu ölkələrdə polis aksiya iştirakçıları ilə çox kobud davranır. Aksiya iştirakçılarına kobudluq edilərkən ətrafda prosesləri izləyən mediadan da çəkinmirlər. O dərəcədə insanlara qarşı böyük kobudluq göstərilir.

Azərbaycan polisi hər zaman ölkədə ictimai asayişin qorunmasında çox fəal iştirak edib. Ölkə vətəndaşlarının rahat həyat şəraitinin təmin edilməsində önəmli rol oynayır. Son qanunsuz aksiyalarda müxtəlif vasitələrlə istədilər ki, ölkə polisini provokasiyaya çəksinlər. Bu minvalla istəyirdilər ki, polisi zor tətbiq etməyə məcbur etsinlər və bunu xaricdəki havadarlarına göstərsinlər. Ancaq bu cəhdlərin hamısı fiaskoya uğradı. Polis nümunəvi davranış sərgiləyərək öz qanuni vəzifə borcunu yerinə yetirdi. Həqiqətən də bu, Azərbaycan polisinin böyük uğuru idi".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda yeni müxalifət - tam yenidən yaranacaq, ya köhnələr transformasiya olunacaq...

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bu günlərdə öz "Facebook" hesabından yayımladığı "Azərbaycana yeni müxalifət lazımdır: radikal və dağıdıcı müxalifətdən qurtuluşun zamanı yetişib" başlıqlı məqaləsində maraqlı məqamlara toxunub.**



## *Məhərrəm Zülfüqarlı: "Köhnələrin yeni qaydalara və ya şəraitə uyğun şəkildə transformasiya olunması mümkün deyil"*

Məqalədə bildirilir ki, bu ölkədə yenilənmək istəməyənlər yalnız 26 ildir Azərbaycanı xaos və anarxiyaya sürükləyən radikal müxalifət cəbhəsinin rəhbərləridir: "Uzun illərdir heç bir cəlbedici ideya və yaxud alternativ təklif ortaya qoya bilməyən, eyni cəfəng fikirləri təkrar-təkrar tirajlayan, bir neçə ambisiyalı şəxsin ətrafında cəmləşərək gecə-gündüz hakimiyyət əşqi ilə qovrulan, əsassız iddialarla dövlət qurumları və dövlət qulluqçularını mənəvi terrora, biabırçı söyüş kampaniyasına məruz qoyan, Azərbaycan cəmiyyətini ənənəvi pozucu fəaliyyətləri ilə bezdirən, 1990-cı illərin kif bağlamış qaranlığından çıxmaq iqtidarında olmayanlar keçən bütün dövr ərzində dayanmadan ölkədə hakimiyyətin dəyişməsini tələb etmişlər. Əlbəttə, heç bir iqtidar daimi deyil. Hər hansı bir siyasi partiyanın formalaşdırdığı iqtidarın ölkəni hansı müddətdə idarə etməsini Azərbaycan xalqı seçki yolu ilə müəyyən edir. Bu il fevralın 18-də qələmə aldığım "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" adlı məqaləmdə də qeyd etmişdim ki, cəmiyyətdəki fərqli kəsimlərin, o cümlədən, müxalifətin cari proseslərə, gələcəyə hesablanmış proqramlara, konsepsiyalara baxış və rəylərini öyrənmək, alternativ ideyaları dəyərləndirmək və yeri gələndə, ən azı, ehtiyat variant olaraq nəzərdə saxlamaq təkcə rasional idarəçilik baxımından deyil, həmçinin, hakimiyyətdə olan komandanın istənilən siyasi rəqabətə daim hazır formada qalması üçün vacib şərtdir".

Əli Həsənov məqaləsinin sonunda radikal müxalifətin yenilənməyə ehtiyacının olduğuna işarə edir: "Bəli, bu gün Azərbaycanda hər şey inkişaf edir və yenilənir. Hətta müxalifətin əsas etiraz məkanı olan "Məhsul" stadionu da yenidən qurulur, təmir olunur və müasir görkəm alır. Amma 26 il müddətində radikal müxalifət düşərgəsində rəhbər kürsüləri zəbt edərək, sivil istefa nümunəsi ortaya qoymağı bacarmayan Əli Kərimli tipli "əvəzsiz liderlər" təmsil olunduqları düşərgədə istənilən pozitiv dinamikanı öz mövcudluqları üçün təhlükə hesab edirlər. Buna görə də xalq tərəfindən kütləvi şəkildə boykot olunmuş bu radikal və dağıdıcı müxalifət "liderlərindən" qurtuluşun tam zamanıdır. Dinamik inkişaf edən, müasirləşən Azərbaycana, yeniləşən cəmiyyətimizə, yenidən qurulan geniş meydanlara sağlam düşüncəli təşkilatlar, qurucu, konstruktiv və sağlam müxalif qüvvələrin gəlişi zamanın tələbidir".

Əli Həsənovun məqaləsinin başlığı və məzmunundan da görünür ki, mövcud şərait ölkədə yeni müxalifətin ortaya çıxmasını şərtləndirir. Həmin yeni müxalifət necə yaranmalıdır? Bunun üçün ən optimal variant hansı sayıla bilər: tam yenidən müxalifətin yaradılması, yoxsa köhnələrin yenidən transformasiya olunması?

Tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hörmətli Əli Həsənovu o olduqca uğurlu bir siyasətçi kimi xarakterizə edir: "Mən müşahidə etmişəm, o hamı ilə açıq təmas qurur, tədbirlərdə də yaxınlaşıb hər kəslə ayrı-ayrılıqda görüşür. Yəni belə vizionu olan adam tam doğrunu söyləyə bilər. Bundan əlavə, Əli Həsənov uzun müddətdir hakimiyyətdə məhz siyasi sahəni, partiyalarla münasibəti kurasiya edir. Onun bu sahə ilə bağlı zəngin bilgiləri və təcrübəsi mövcuddur. Əli müəllimin məlum məqaləsi də çoxları üçün demokratiya dərsi sayılmalıdır. Mən də razıyam ki, bu zehniyyətlə radikal müxalifət uzağa gedə bilməz. Təbii ki, onların yenilənməsinə ehtiyac var. Fikir verirsinizsə, partiyalara rəhbərlik edənlər postlarından elə bərk yapışıblar ki, onu kiməsə vermək istəmirlər. Onlar sıralarına cəlb etdikləri gəncləri də qaranlığa, zülmətə aparırlar. Məsələnin başqa aspekti isə budur ki, həmin adamlar xalqdan qida almırlar. Onlar xaricdən idarə olunurlar. Kənardan idarə olunan adamdan yaxşı nəsə gözləmək olmaz. Çünki onları idarə edənlər heç vaxt ölkəmizdə əminamanlığın olmasını istəmirlər. Bu yenilənməni artıq tarixi şərait də zəruri edir. Artıq yalanlar da yerimir. Xalq görür ki, bunlar yerindən tərpənə bilmir. Ona görə də əsl xalqın içindən çıxan müxalifətin formalaşması ilə proses yenilənə bilər. Yəni köhnələrin yeni qaydalara və ya şəraitə uyğun şəkildə transformasiya olunması mümkün deyil.

## *"Yaxın zamanlarda yetişərək siyasi arenaya çıxacaq gənclər..."*

Yaxın zamanlarda yetişərək siyasi arenaya çıxacaq gənclər həmin boşluğu doldura biləcəklər. Onda bunlar öz-özlərinə səhnəni tərk edəcəklər. Çünki kiminsə diqtəsi ilə idarə olunan adamların transformasiya olunması mümkün deyil. Sağlam müxalifət bütün dövlətlərə lazım olduğu kimi, bizə də gərəkdir. Ancaq niyyəti, düşüncəsi sağlam olan müxalifətdən söhbət gedir. Əli müəllimin anonsunu verdiyi proses yaxın zamanlarda startını götürəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilər qadınlar məsələsində İstanbul Konvensiyasının əleyhinə çıxır, Bakıda isə bir qrup qadın dəstəsi Konvensiyanı müdafiə edir...

**Bakının mərkəzində özünə feminist deyən kiçik bir qadın qrupu icazəsiz aksiya keçirməyə cəhd edib. Aksiyada Real Partiyasının sədri İlqar Məmmədovun da görünməsi burada siyasi məqsədlərin olmasına şübhə yeri qoymur. İcazəsiz aksiyada "Konvensiyanı rədd etmə, qadınları qətl etmə!" şüarları səsləndirilib.**



İştirakçıların verdiyi açıqlamadan məlum olur ki, onlar İstanbul Konvensiyasını nəzərdə tuturlar. Onların bəyanatında deyilir: "Tələb edirik ki, İstanbul Konvensiyası kimi tanınan "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası" Azərbaycan tərəfindən imzalansın və ratifikasiya edilsin".

Maraqlıdır, Ermənistanın belə qəbul etmək istəmədiyi İstanbul Konvensiyası özündə nəyi ehtiva edir ki, bir qrup qadın Azərbaycanın ona qoşulmasını istəyir?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, haqqında danışılan İstanbul Konvensiyası 2011-ci ildə Türkiyənin İstanbul şəhərində qəbul etdiyi "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Konvensiyadır: "İstanbul Konvensiyası 18 dekabr 1979-cu il tarixdə BMT Baş Assambleyasının qəbul etdiyi Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın bazası əsasında işlənib.

Qeyd edim ki, BMT-nin bu konvensiyasına, Azərbaycan da daxil, BMT-yə üzv olan 180 dövlət qoşulub. Ümumilikdə, İstanbul Konvensiyasının əksər müddəası Azərbaycanda, ölkədaxili qanunvericiliyimiz üçün yenilik deyil, müxtəlif normativ-hüquqi aktlarda təsbit olunub. İstanbul Konvensiyasının bəndlərinin əksəriyyəti BMT-nin qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasında artıq təsbit olunub, lakin fərqləndirən məqamlar var.

BMT-nin qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası üzv dövlətlərə qadınların qərar qəbuletmə, icraedici və qanunverici səviyyədə prosesə cəlb olunması üçün (kvota, təbliğ və s. kimi imtiyazların həyata keçirilməsi) öhdəliyi müəyyənləşdirir və bu özlüyündə qadınların ayrıseçkiliyin bütün formalarından həqiqətən azad olunmasının təmin edilməsinə və qadınların inkişafı və özlərini realizə etmək üçün bərabər imkanlar yaradılmasına təşviq edir.

İstanbul Konvensiyası isə ailə və məişət səviyyəsində qadınlara qarşı ayrıseçkilik və zorakılığın aradan qaldırılması və ona qarşı mübarizə kimi nəzərdə tutulur. Lakin İstanbul Konvensiyası cinsi müəyyən edən ilk beynəlxalq müqavilədir.

Konvensiya onu qəbul edir ki, qadın və kişilər bioloji cinsin fərdləri olmaqla bərabər, eyni zamanda, qadın və kişiyə xas olan rol və davranışları müəyyənləşdirən sosial cəhətdən qurulmuş bir gender kateqoriyası mövcuddur.

Qadınlara qarşı zorakılığı insan hüquqlarının pozulması və ayrıseçkilik şəklində nəzərdə tutan İstanbul Konvensiyasına görə, belə hallara müvafiq reaksiya verməyən dövlətlər bu zorakılığa görə məsuliyyət daşıyırlar".

Ekspertin sözlərinə görə, ənənəvi ailə modelində bəzi rol və davranışlar qadınlara qarşı zorakılıq kimi qəbul edilə bilər və üzv dövlətlərdə bu halların aradan qaldırılması mexanizmləri mövcud deyil, onda bu sənəd həm də üzv dövlətlərə qarşı kənar təzyiq aləti kimi itifadə oluna biləcək bir hala gətirib çıxarır: "Sənədin narahatlıq doğuran məqamlarından biri də İstanbul Konvensiyasına qoşulmuş üzv dövlətlərin daxili qanunvericiliyi və normativ-hüquqi aktlarında artıq təsbit olunmuş əksər müddəanı, mövcud dövlətlərin mexanizmlərini iflic edəcəyi və sıradan çıxarması ilə nəticələnəcəyi haqqındadır. Şəxsi rəyim ondan ibatətdir ki, İstanbul Konvensiyası hüquqi sənəddən daha çox ideoloji sənəddir.

Belə ki, ənənəvi ailə modeli və bütünlükdə adına milli mental dəyərlər dediyimiz adət-ənənələrin aradan qaldırılmasına, ailədə ənənəvi qadın stereotiplərinin sındırılmasına hesablanmış İstanbul Konvensiyası hüquqi sənəddən daha çox ideoloji sənəddir.

Avropa Şurasına üzv olan 47 ölkədən 34-ü Konvensiyanı ratifikasiya edib, bu, İstanbul Konvensiyasına müxtəlif qeyd və şərtlər əlavə etməklə həyata keçirilib. Bolqarıstan, Xorvatiya, Çex Respublikası, Yunanıstan, Macarıstan, İrlandiya, Latviya , Litva, Lüksemburq, Slovakiya, Böyük Britaniya və Ermənistan İstanbul Konvensiyasını imzalasalar da, ratifikasiya etməyiblər.

Konvensiyanı ratifikasiya etməyən ölkələrdən ikisində - Ermənistan və Çexiyada cəmiyyətdə təpkilər və etirazlar üzündən ratifikasiya etməyiblər. Konvensiyanı iki dövlət - Rusiya və Azərbaycan, ümumiyyətlə, imzalamayıblar".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Hərbi büdcəmizin böyüməsi təcavüzkarı lərzəyə saldı

**İqtisadi müstəvidə Azərbaycanın əldə etdiyi uğurlar onun müdafiə qabiliyyətinə də birbaşa təsir göstərib ölkəni daha güclü hala gətirməkdədir. Elə gələn il üçün müdafiə xərclərinin artırılmasına bu prizmadan yanaşılması da təsadüfi sayıla bilməz.**

Məlumat üçün bildirək ki, müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri üçün 2020-ci ilin dövlət büdcəsi xərclərinin 21,6 faizi həcmində və ya 5 milyard 826,7 milyon manat vəsait nəzərdə tutulub. 2020-ci ilin dövlət va icmal büdcələri üzrə sənəd layihəsində qeyd olunur ki, bu istiqamətə ayrılan vəsait 2019-cu ilə nisbətən 1 milyard 70,7 milyon manat və ya 22,5 faiz çoxdur. Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanması xərcləri üzrə nəzərdə tutulmuş vəsaitin 3 milyard 853,6 milyon manatı və ya 66,1 faizi müdafiə va milli təhlükəsizliyin maliyyələşdirilməsinə yönələcək. Bu da o deməkdir ki, gələn il orduya ayrılan xərclər 2019-cu ilə nisbətən 666 milyon manat və ya 20,9 faiz çox olacaq. Təbii ki, bu həcmdə vəsait ordumuzun gələn il üçün maddi-tezniki təminatından tutmuş digər istiqamətlərə qədər tələblərinin ən yüksək səviyyədə qarşılanacağını göstərir. Proseslərin bu səpkidə inkişafı isə işğalçı Ermənistanda indidən böyük təşvişə yol açıb.

Düşmən ölkədə hesab olunur ki, belə vəziyyət Azərbaycanın hərbi üstünlüyünün daha da artmasına gətirib çıxaracaq və bu hal Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli halında nəticələrə bilavasitə təsir göstərəcək. Hərbi məsələlər üzrə erməni ekspert Karen Vrtanesyan da vurğulayır ki, ölkəsinin Azərbaycanla ayaqlaşması getdikcə daha mümkünsüz hala gəlir və Bakı bu üstünlüyündən mütləq istifadə edəcək: "Hərb sahəsində iki ölkə arasında fərq artır. Ermənistanın baş naziri Nikol Paşinyan isə seçkiqabağı çıxışları zamanı bildirirdi ki, Ermənistan hərbi büdcəsi artmalıdır və indi bu vəd, deyəsən, unudulub". Ekspert 2020-ci il Ermənistan dövlət büdcəsi xərclərində hərbi müdafiə xərclərinin 0,8% artması məsələsinə toxunarkən bildirib ki, əvvəllər müxalifət durmadan vəd verirdi ki, hakimiyyətə gəlsə yeni silahların alınması, hərbi büdcənin artması və digər məsələlər üçün çox tezliklə pul tapılacaq: "Biz bunu xatırlayırıq. İndi bütün bu vədlər, deyəsən, unudulub və tamamilə başqa rəqəmlər qeyd edilir. Büdcədən hansısa anlaşılmaz xərclər ödənilir. Məsələn, baş nazirin hansısa qanadlı sözləri bilbordlara çap etdirilir, lakin hərbi xərclər artmır. Əvvəllər hərbi xərclərin artırılması haqqında danışılırdı. Qeyd edilirdi ki, silahlanma yenilənməlidir, təcili yeni silahlara zərurət var, lakin indi edilmir. Sual verirəm, niyə?". Vrtanesyan qeyd edib ki, Azərbaycanın 2020-ci ildə müdafiə və milli təhlükəsizlik xərclərinin təxminən 20% artdığı nəzərə alınarsa, Ermənistandakı artım olduqca cüzidir və bu, balansın pozulmasına, problemlərin ortaya çıxmasına səbəb olacaq.

Ekspertlər vurğulayır ki, Azərbaycanın hərbi xərclərinin belə artımı fonunda Ermənistanın çox arxa planda qalması və bu səpkidə düşmən ölkədə həyəcan təbili çalınması heç də təsadüfi deyil. Çünki münaqişənin həllinin uzanması Azərbaycanı güc variantına əl atmağa vadar edir və bu halda maddi-texniki təminatı yüksək olan ordumuzun düşmən üzərində qısa zaman kəsiyində qələbə çalması qaçılmazdır. Məhz bu səbəbdən Azərbaycanın artan hərbi xərcləri Ermənistanda belə təşviş yaradır. Məsələ ilə bağlı millət vəkili Hikmət Babaoğlu qeyd edir: "Nə qədər ki Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıb, hər zaman müharibənin başlaması məsələsi gündəmdə qalacaq. Hər zaman Azərbaycan büdcəsində dinamik olaraq hərbi xərclər artır. Ordunun texniki təchizatı və kadr resursları yaxşılaşdırılır. İşğalda olan bir ölkənin hərbi xərclərini artırmasını təbii hal hesab etmək olar. Bilirik ki, Azərbaycan ordusu dünyanın ən güclü orduları siyahısındadı və öz ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Bunu dost və düşmən də çox yaxşı bilir". Xatırladaq ki, Azərbaycan ordusu dünyanın 50 ən güclü ordusundan biridir. Ölkəmizin hazırda regionda ən güclü ordusu və texnikası var. Bu durumda hərbi xərclərin artırılması ordumuzun mövqeyini daha da yaxşılaşdırır, döyüş hazırlığını yüksəltmək üçün əlavə təkan verir.

Qeyd edək ki, hərbi xərclərin artması nəticəsində ötən dövr ərzində ordunun arsenalının 80 faizindən çoxu yenilənib. Eyni zamanda böyük həcmdə yeni silah və hərbi texnikaların satın alınması baş tutub. Bunlar həm də milli müdafiə sənayesinin yaradılması istiqamətində mühüm addımlar atılmasına imkan verib. Yuxarıda qeyd olunduğu kimi, indinin özündə də dövlət büdcəsində müdafiə xərcləri və hərbi sahə üçün nəzərdə tutulan vəsaitin həcmində hər il artım müşahidə olunur. Xatırladaq ki, 2003-cü ildə müdafiə xərcləri 135 milyon dollar təşkil etdiyi halda, hazırda bu rəqəm milyardlarla dollar həcmindədir. Araşdırmalar göstərir ki, 2010-2015-ci illərdə isə hərbi xərclər pik həddə, illik 3 milyard dolların üzərində olub. Məhz həmin illərdə hərbi sahədə böyük miqdarda satınalmalar və inşaat-quruculuq işləri gerçəkləşdirilib. Yeni texnologiyaların alınması və tədbiqi işləri ilə paralel olaraq, hərbçilərin sosial məişət şəraitinin yaxşılaşdırılması da daxil olmaqla, ölkəmizin müdafiə qabiliyyəti gücləndirilib. Bunlar həyata keçrildikdən sonra illik müdafiə xərcləri 2 milyard dollar civarında olmağa başalyıb və bu, işğalçı Ermənistanın analoji xərclərindən təxminən 4 dəfə çoxdur. Belə vəziyyətdə aparıcı beynəlxalq mərkəzlərin dəyərləndirmələrində göstərilir ki, Azərbaycan müdafiə xərclərinin səviyyəsinə, silahlanma və ordunun döyüş qabiliyyətinə görə nəinki mövcud olduğu regionda, eləcə də postsovet məkanında, Cənub Şərqi Avropada ilk yerlərdə dayanır. Ekspertlərin analizlərinə görə, Azərbaycanda ordunun silah və texnika parkının yenilənməsi üç istiqamətdə aparılır. Bunlardan birincisi xaricdən satınalmalar, ikincisi yerli istehsalın yaradılması, üçüncü istiqamət isə yerli müəssisələrin bazasında modernləşmə layihələrinin həyata keçirilməsidir. Dövlət rəhbərliyinin siyasi iradəsi və təşəbbüsü nəticəsində qurulan milli müdafiə sənayesinin əsas hədəfi də məhz ordunun xarici hərbi asılılığını azaltmaqdır. Ötən dövr ərzində Azərbaycan bu istiqamətdə böyük uğurlar əldə edib və indi ölkəmizdə 1200 addan çox hərbi təyinatlı məhsul istehsal edilir. Özü də burada istehsal məhsulları ən qabaqcıl tələblərə cavab verir. Bu fonda Qarabağ münaqişəsinin təhlili göstərir ki, müasir silahlar, yeni texnologiyaların tətbiqi müharibələrin taleyini birbaşa həll edən başlıca amillərdəndir. Bunun üçün həm milli, həm də xaricdən yeni silah və texnologiyanın alınıb tətbiq edilməsi vacib şərtdir. Məhz Azərbaycanın artan hərbi büdcəsi bütün bunlara lazımi şərait yaradır. Ermənistanda isə tamam əks vəziyyətdir.

Düşmən ölkədə hesab olunur ki, baş verənlər Azərbaycanın Qarabağ məsələsində mövqelərini daha güclü hala gətirir. Erməni ictimai-siyasi xadim Qriqori Ayvazyan bildirir ki, bu kimi hallar Azərbaycanın artıq sözdən işə keçməyə hazır olduğuu xatırladır. O, hərbi xərclərin artımı ilə yanaşı, Azərbaycan Prezidentinin "Valday" Beynəlxalq Klubunun iclası zamanı etdiyi çıxışın da burada çox söz dediyini vurğulayır: "Oktyabrın 3-də Soçidə, "Valday" Beynəlxalq Klubunun iclasında Azərbaycan prezidenti İlham Əliyev erməni xalqına və dövlətçiliyinə qarşı bəyanatlar verdi. O, avqustun 6-da Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə baş tutmuş mitinqdə ifadə etdiyi "Qarabağ Ermənistandır, vəssalam" bəyanatına "Qarabağ Azərbaycandır və nida işarəsi" şəklində cavab verməklə bəyanat səsləndirdi. Bu, müttəfiqimiz Rusiyanın rəsmi nümayəndələrinin iştirakı ilə baş tutdu. Əlbəttə, bu kimi fəaliyyətlər eyni zamanda xatırladır ki, Azərbaycan artıq sözdən işə keçməyə hazırdır. Bu müddət ərzində Bakıda türk ölkə rəhbərləri və xarici işlər nazirləri arasında görüşlər baş tutdu. Türkiyə Azərbaycanın Qarabağa və Ermənistana hücum etmək kimi hərbi planlarına tam dəstək verdi. Eyni zamanda bu dövrdə Minsk Qrupunun həmsədrləri regional səfərə gəlib, lakin həmişə olduğu kimi, konkret ünvanlar əvəzinə neytral, ünvansız bəyanatlarla təcavüzkar hərəkətləri qınaqdıqlarını, sakitliyin və sülhün hazırlanmasına çağırış etdiklərini bildirirlər. Yaranmış vəziyyətdə Azərbaycan savaşa başlasa, Minsk Qrupunun həmsədrləri onu durdurmayacaq. Biz müharibə astanasındayıq və sülh perspektivləri getdikcə bulanır. Minsk Qrupunun həmsədrləri isə ümumi bəyanatlarla Azərbaycanın o mövqeyini daha çox təşviq edirlər ki, məsələ müharibə yolu ilə həll edilməlidir və bunun üçün beynəlxalq cəmiyyət onları qınamayacaq".

Beləliklə, Azərbaycanın hərbi əməliyyatlara start verdiyi təqdirdə Ermənistanın çox böyük problemlərlə üzləşəcəyini düşmən ölkədə də açıq etiraf edirlər. Burada o da vurğulanır ki, Ermənistanın Azərbaycanla hərbi sahədə hansısa balans yaratmaq cəhdləri iflasa uğrayıb və qarşıdakı dövr ərzində ölkələr arasında bu istiqamətdə fərq daha da böyüyəcək. Elə buna görə də düşmən üçün ən yaxşı çıxış yolu Qarabağ münaqişəsinin həllini məhz dinc müstəvidə Azərbaycanla razılaşdırmaqdır. Əks təqdirdə məsələyə ordumuzun müdaxiləsi qaçılmazdır ki, bunun da Ermənistan üçün nəticələri kifayət qədər sarsıdıcı olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# "Bloqqer Əli Kərimli hər prosesdə özünü xarici etiraz liderlərinə oxşatmağa çalışır"

**19 oktyabr aksiyasının bəzi məqamları ilə bağlı beynəlxalq hüquq üzrə ekspert Yeganə Hacıyevaya bir neçə sual ünvanladıq. Əsasən 19 oktyabr proseslərinin beynəlxalq reallıqlarla bağlı məqamlarını əhatə edən cavabları təqdim edirik:**



**- Əli Kərimli Navalnı yolunu gedir. Bu açıq şəkildə görünür. Ötən ay Rusiyada Moskva Dumasına və bir neçə quberniyaya seçkilər keçirildi. Orada bəzi namizədlərin qeydə alınmaması ilə bağlı aksiyalar keçirildi və müxalifət şəhərin mərkəzini istədi, yəni icazəli yerlərə getmədi. Nəticədə Moskvanın mərkəzində mitinqlər keçirildi, insanlar həbs olundu, bir neçə gəncə 2 ildən artıq cəza verildi. Sizcə, oxşar proseslər bizdə də getmirmi?**

- Hər bir etirazın fəlsəfəsində davam edən, razı olmadığın proseslərə fikir bildirmək niyyəti durur. Bütün dünyada formalaşmış və qəbul olunmuş bir norma var ki, siyasi qrupların etirazları müəyən proseslər öncəsi və ya ərəfəsi iqtisadi, sosial və ya siyasi sifariş əsasında keçirilir. Yəni məntiqi olaraq davam edən proseslərə daxili sifariş əsasında etiraz edirlər. Azərbaycanda isə bu proses bir qaragüruh qrupun monopoliyasında zaman-zaman kənar təsirlərdən hərəkətə gələn bir prosesdir. Məsələn, Ukraynada narıncı inqilab olanda narıncı rəngə bürünüb etiraz edir, Gürcüstanda qızılgül inqilabı olanda əllərinə qızılgül alıb etiraz edir, Türkiyədə qadına qarşı zorakılıq etirazı gedəndə bizimkilər gender bərabərliyi əsasında etirazlar təşkil edir, Yaxın Şərqdə islam təmayüllü inqilablar baş verəndə belə bizdə bundan da ruhlanıb, eynisini yamsılamağa cəhd edirlər. Yəni kənarda baş verən etirazların imitasiyası gedir. Proses imitasiya olunduğu kimi, simalar da yamsılanır. Məsələn, bloqger Əli Kərimli hər prosesdə özünü xarici etiraz liderinə oxşatmağa çalışır, misal üçün, elə haqqında bəhs etdiyiniz Navalnı kimi. Ancaq məsələ ondadır ki, Navalnı və qrupunun alətləri söyüşkən rus cəmiyyəti üçün uğurlu olsa da, Azərbaycanda əksinə, bu qruplara nifrət gətirir.

**- 28 sentyabr aksiyasına icazə verildi, getmədilər, piket keçirdilər. İndi də 19 oktyabr aksiyasına icazə verilib, yenə getmirlər və hətta "28 May" Metrostansiyasının qarşısındakı ərazidə toplaşacaqlarını bildirirlər. Əli Kərimli şəxsən özünün aksiyada iştirak edəcəyini deyir. Nə baş verir? O insanları tutdurmaq, ölkəni qarışdırmaq taktikasını seçib?**

- Bu suala cavab kimi bəhs etdiyimiz etiraz təşəbbüsünün mahiyyətini sıravi vətəndaşımıza aydın etmək üçün kiçik bir izah vermək istəyirəm. Keçən həftə Aşqabadda MBD ölkələri rəhbərlərinin iclası keçirildi. Bir neçə gün öncə Bakıda Türkdilli ölkələrin Şurası toplaşdı. Bu görüşlər regionda gedən proseslərin üzdə görünən tərəfləridir. Bu görüşləri şərtləndirən mühüm məqamlar var. Diqqət etdinizsə, bu proseslərdə Azərbaycanın yeri və mərkəzi rolu, ən əsası isə Ermənistanin hansı səviyyədə qısnanması aydın gözə çarpdı. Türkiyənin "Barış Pınarı" sülh əməliyyatı və bu əməliyyatın regionumuza necə təsiri olması haqqında isə geniş danışmağa fikirimcə ehtiyac yoxdur. Çünki bu əməliyyatlar regionun strateji nəqliyyat və tranzit roluna bir başa təsir edən məsələlərdir. İndi sual yaranır, regionda kənar maraqların bu qədər qabarıq konfrantasiyası kimi həssas bir dönəmdə, proseslərin mərkəzində olan Azərbaycanın paytaxtında müxalifət etiraz üçün icazəli yer olduğu halda, mərkəzdə icazəsiz aksiya keçirib, qarşıdurma və çaxnaşma görüntüsü yaratmaqla Azərbaycanla bağlı hansı mesajı ötürməyə çalışır? Və ən əsası belə görüntü yaratmağın sifarişi onlara hardan gəlib? Əlbəttə, haradan gəldiyini müəyyən etmək çətin deyil. Bütün hallarda tam əminliklə deyə bilərik ki, proses kənardan idarə olunur.

**- Rusiyadakı aksiyalara Qərbin diqqətini çəkmək mümkün oldu. Hətta aksiyaları Moskvanın mərkəzində keçirməyə icazə almağa nail oldular. Burada necə, Milli Şura Qərbin diqqətini çəkə biləcəkmi? Ən əsası, Rusiya müxalifə şəhərin mərkəzində Rusiya müxalifəti kimi icazə ola biləcəkmi?**

- Qərb dediyimiz monolit bir təsisat deyil. Qərb müxtəlif dairələrdən ( dövlət, təşkilat və s.) və bu dairələrdə müxtəlif maraqlara xidmət edən qruplardan ( siyasi, iqtisadi lobbi qrupları və s.) ibarətdir. Ancaq Qərb adlandırdığımız, AB , ABŞ- təsisatın bəlli ünvanları, siyasi, təhkükəsizlik mərkəzləri Azərbaycan hakimiyyətini də, müxalifəti də yaxşı tanıyır. Detallara varmadan bir məqamı qeyd etmək istəyirəm: son iki ildə AB-nin kiber təhlükəsizlik institutları maraq dairəsinə daxil olan regionlarda sosial media üzərindən hibrid alətlərlə aparılan informasiya müharibələrinə aid qapalı və açıq hesabatlar hazırladılar. Bu hesabatlarda Cənubi Qafqaz ölkələrindən Azərbaycanla bağlı məqamlar yer alıb. Sənədlərdə ölkədəki nüfuz agentlərinin (müxalifət liderləri, müstəqil, siyasi, ictimai simalar və s.) sosial media üzərindən təbliğatında kənar qüvvələrin, xarici xüsusi xidmət orqanlarının kiber təsisatlarının iştirakı haqqında informasiyalar var. Bununla yekunlaşdıraraq onu demək istəyirəm ki, Qərb adlandırdığımız, ünvanı bəlli olan təsisatlar - siyasi, iqtisadi, təhkükəsizlik mərkəzləri Azərbaycan müxalifətini tanıyır və onun kənar əlaqələrinin hansı səviyyədə olduğunu bilir. Azərbaycanda müxalifətin etirazlarla və süni qarşıdurmalarla diqqətini çəkməyə çalışdığı dairələr isə ünvanı, məramı bəlli olmayan, anti-Azərbaycan ruhunda köklənmiş surroqat təsisatlardır.

# Paşinyan hələ siyasi məhbus olarkən ədliyyə nazirindən gördüyü şəxsi pisliyin qisasını aldı

**"Hrayr Tovmasyan Ermənistanın ədliyyə naziri postunu tutarkən Nikol Paşinyanın yazışma hüququ qanunsuz olaraq məhdudlaşdırılıb". Bu barədə öz "Facebook" səhfəsində Ermənistan Baş nazirinin mətbuat katibi Vladimir Karapetyan yazıb.**



## *Elçin Mirzəbəyli: "Nikol Paşinyanın sərgilədiyi davranışların təməlində qisasçılıq dayanır"*

Mətbuatın suallarını cavablandırarkən o bildirib ki, həmin vaxt siyasi məhbus olan Nikol Paşinyana hər hansı qısa və uzunmüddətli görüşlər qadağan olunub: "Hrayr Tovmasyan ədliyyə naziri olan zaman Nikol Paşinyan həbs olunanda ona qısa və ya uzunmüddətli görüşlər verməyib. O vaxt mətbuatı izləyənlər bilirlər ki, N.Paşinyan həbsdə olarkən yazı yazmaq üçün lazım olan bütün vasitələrdən məhrum olmuşdu".

Məlumdur ki, Ermənistanda hakimiyyətin törətdiyi qanunsuzluqlarla etiraz edən Konstitusiya Məhkəməsinin sədri H.Tovmasyan hazırda həbsdədir və onun ailəsinin əmlakı müsadirə olunub. Belə bir fikir səslənir ki, Tovmasyanın ailəsinin əmlakının müsadirə olunması N.Paşinyanın ondan qisas alması ilə ilə bağlıdır.

Belə anlaşılır ki, Ermənistan hakimiyyəti qisasçı bir siyasət aparır.

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru, siyasi icmalçı Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, N.Paşinyanın sərgilədiyi davranışların təməlində qisasçılıq dayanır: "Onun həbsə atdığı insanlar da, prinsip etibarilə, onun şəxsi maraqları çərçivəsində həbs olunan şəxslərdir. Məlumdur ki, Ermənistanın sabiq hakimiyyətinin bütün nümayəndələri, o cümlədən, Serj Sarkisyan cinayətkardır. Və onların cinayətkar əməlləri haqqında kifayət qədər fakt var. Vaxtilə özünün həbs olunmasını Robert Köçəryana bağışlamayan Paşinyan Sarkisyanın Ermənistan xalqına qarşı daha ağır cinayət törətməsinin fərqinə varmır. Bu gün də Serj Sarkisyan sərbəst şəkildə Ermənistanda yaşayır. Bütövlükdə, N.Paşinyanın hər bir davranışı qisasçılıq zəminindədir. Əminliklə deyə bilərəm ki, bu şəxsin demokrat imicinin arxasında yırtıcı bir obraz dayanır".

*"...həbsə atdığı insanlar da, prinsip etibarilə, onun şəxsi maraqları çərçivəsində həbs olunan şəxslərdir"*

***Günel CƏLİLOVA***

# Fransada 10-cu şəhərin ermənilərlə saxta "qardaşlaşma sazişi" ləğv olundu

**Uzun illərdir ermənilər işğal etdikləri Azərbaycan ərazilərində saysız saxtakarlıq həyata keçiriblər. Onlardan biri də işğal altında olan Azərbaycan şəhərlərinin Avropa ölkələri şəhərləri ilə "qaraşlaşdırılması"dır ki, bu da, heç şübhəsiz, xaricdəki erməni lobbisinin saxtakar fəaliyyəti və o şəhərlərin rəhbərliyinə təsir göstərməsi nəticəsində baş tutub.**



## *Vaqif Abışov: "Fransa məhkəməsinin belə bir qərar verməsində Azərbaycan dövlətinin məqsədyönlü, uğurlu xarici siyasət aparmasının təsiri, rolu şübhəsizdir"*

Erməni lobbisinin dəri-dən-qabıqdan çıxmasına, özünü oda-közə vurub "qardaşlaşdırma"nı dərinləşdirməyə cəhd göstərməsinə baxmayaraq, haqq-ədalət öz yerini tutur. Bildiyimiz kimi, indiyə qədər işğal olunmuş Azərbaycan şəhərləri ilə xarici ölkə şəhərləri arasında imzalanan "qardaşlaşma sazişləri"nin həmin ölkələrin məhkəmələrinin hökmü ilə ləğv edilməsinin şahidi oluruq. İndiyə qədər Fransanın ayrı-ayrı şəhər məhkəmələrinin qərarı ilə 9 "qardaşlaşma sazişi"nə xitam verilib.

Bu günlərdə isə Fransada bu istiqamətdə Azərbaycanın xeyrinə 10-cu məhkəmə baş tutub. Belə ki, qondarma rejimlə imzalanmış "xartiya"nın daha biri ləğv edilib.

Məlumatlara görə, oktyabrın 17-də Lion inzibati məhkəməsi Fransanın Vilörban kommunası ilə Azərbaycanın işğal olunmuş Şuşa şəhəri arasında 2015-ci il mayın 18-də imzalanmış "xartiya"nı ləğv edib. Bu barədə mətbuata Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Məlumatda Fransa məhkəməsinin Azərbaycan və Fransa milli qanunvericiliyinə zidd olaraq imzalanan qanunsuz "saziş"in ləğv olunmasına dair qərarı alqışlanıb: "Bu günədək Fransa şəhərləri ilə Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejim tərəfindən yaradılan "yerli hakimiyyət orqanları" arasında imzalanan 10 qanunsuz "müqavilə" Fransanın müvafiq məhkəmə qərarları ilə ləğv olunub. Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun tarixi mərkəzi olan Şuşa şəhəri ilə imzalanmış 3 qanunsuz "xartiya"nın hamısı ləğv edilib".

"Azərbaycan tərəfi inanır ki, hazırda qüvvədə olan və Fransa qanunvericiliyi, xüsusilə də ölkə Konstitusiyasının 73-cü maddəsi ilə ziddiyyət təşkil edən digər qanunsuz "sənədlər" də tezliklə Fransa məhkəmələri tərəfindən ləğv ediləcək. Qanunun aliliyi hər şeydən üstündür və Fransadakı erməni lobbi qrupları başa düşməlidirlər ki, onların Fransa qanunlarını və bu ölkənin beynəlxalq öhdəliklərini pozmaq bahasına öz maraqlarını reallaşdırmaq cəhdləri uğursuzluğa düçardır" - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir.

## *"...digər xarici ölkələrdə də təkrarlana bilər"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, bu gün artıq dünya reallığı bilir, hansı dövlətin işğalçı olduğunu, hansı dövlətin isə ərazilərinin işğal edildiyini aydın şəkildə görür. V.Abışov hesab edir ki, qondarma rejimlə imzalanmış "xartiya"nın daha birinin ləğv edilməsində, şübhəsiz, Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin təsiri var. "Fransa məhkəməsinin belə bir qərar verməsində Azərbaycan dövlətinin məqsədyönlü, uğurlu xarici siyasət aparmasının təsiri, rolu şübhəsizdir. Dövlətimiz tərəfindən Dağlıq Qarabağ problemi ilə bağlı beynəlxalq ictimaiyyətdə belə bir təbliğat aparılmasaydı, yəqin ki, biz qondarma rejimlə Fransa şəhərləri arasında imzalanan "qardaşlaşma xartiyası"nın məhkəmə qərarı ilə ləğvinə nail ola bilməzdik. Erməni lobbisinin güclü olduğu, kök saldığı Fransada, bu ölkənin məhkəməsində separatçıların əleyhinə qərar qəbul edilməsi bizim xarici siyasətin uğurudur. Hesab edirəm ki, Fransa məhkəmələrinin qərarı ilə qondarma rejimlə bu ölkənin şəhərləri arasında bağlanan "qardaşlaşma sazişi"nin ləğv edilməsi prosesi digər xarici ölkələrdə də təkrarlana bilər. Fikrimcə, Fransadan sonra bu hal başqa ölkələrdə yaşanacaq. Ermənistanın işğalçılıq siyasətini açıq və gizlin şəkildə dəstəkləyən bir sıra ölkələrdə də bu "saziş"lərin pozulması gözlənilməndir. Əgər Avropanın iri dövlətlərindən biri olan, eyni zamanda da erməni lobbisinin güclü şəkildə fəaliyyət göstərdiyi bir ölkədə bu baş verirsə, demək, başqa ölkələrdə də təkrarlana bilər".

V.Abışov hesab edir ki, başqa dövlətlərdə də ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi, burada qondarma rejim yaratması, saxta "qardaşlaşma xartiyası" imzalaması pislənəcək.

***İradə SARIYEVA***

# 4 milyondan çox adamın rifahını yaxşılaşdıran əlavə milyardlarla vəsait dövriyyədə - inflyasiya cəmi 2 faiz... Azərbaycan iqtisadiyyatının gücü...

**"İnflyasiya çox aşağı səviyyədədir, 2 faizdən bir qədər çoxdur. Nəzərə almalıyıq ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı - 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Yəni bu məqsədlər üçün milyardlarla manat vəsait xərcləndi və bu vəsait sosialyönümlü istiqamətə nəzərdə tutulurdu.**



## *Vüqar Bayramov: "Artımlar mərhələli şəkildə istehlak bazarına daxil oldu"*

Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu çox yaxşı göstəricidir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir".

Məlum olduğu kimi, bu fikirləri Prezident İlham Əliyev iqtisadi müşavirədə deyib. Onun sözlərinə görə, gələcəkdə də minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün bizdə iradə var və imkanlar buna uyğun olmalıdır. Buna nail olmaq üçün bütün maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir.

Görünən odur ki, Azərbaycan dövləti ölkə əhalisinin maddi rifahını daha da gücləndirmək üçün düşünülmüş sosialyönümlü siyasət aparır. Hazırda Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkələrdən biridir. Ölkəmizdə mütəmadi olaraq həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır. Ünvanlı sosial yardım alanların sayı artır. İndi hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır.

Bütün bunlar o deməkdir ki, dövriyyəyə milyardlarla vəsait daxil olur. Adətən bu cür artımlar bir çox ölkədə inflyasiya təzyiqlərini artırır. Nəticə etibarilə bu, inflyasiyanın böyük ölçüdə artmasına gətirib çıxarır. Azərbaycanda isə, qeyd olunduğu kimi, bir belə artımın müqabilində inflyasiyanın səviyyəsi 2 faizdən bir qədər çoxdur. Maraqlıdır, Azərbaycan belə aşağı inflyasiya göstəricisinə necə nail olur?

## *"...ölkədə inflyasiyanın böyük ölçüdə artmasına gətirib çıxarmadı"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramov bunun səbəbini bir sıra arqumentlərlə əsaslandırdı: "Nəzərə almaq lazımdır ki, Azərbaycandakı artımlar daha çox minimum əməkhaqqı və minimum pensiyanın artırılmasına hesablanmışdı. Yəni daha çox sosial təminata ehtiyacı olan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsini özündə ehtiva edirdi. Bu da çox vacibdir. Bununla belə, minimum pensiya və əməkhaqlarının artırılması daha çox istehlak bazarında yerli məhsullara tələbi formalaşdırır. Bu zaman tələbin yerli istehsal hesabına qarşılanması mümkündür. Çünki yerli istehsal hesabına tələb qarşılananda bu hər hansı tarazılığın pozulmasına gətirib çıxarmır. Başqa bir tərəfdən, artımlar mərhələli şəkildə istehlak bazarına daxil oldu. Yəni artım paketləri növbəli şəkildə qəbul edildi. Ona görə də bu, ölkədə inflyasiyanın böyük ölçüdə artmasına gətirib çıxarmadı. Görünən odur ki, birrəqəmli inflyasiyanın qorunub saxlanması mümkün olacaq".

***Vidadi ORDAHALLI***

# Türkiyənin Suriya əməliyyatları Ermənistanda Rusiya bazasının taleyi barədə müzakirəni yenidən qaldırıb

**Ermənistanda son günlərdə ciddi narahatlıq və narazılıq predmetinə çevrilən məsələlərdən biri də Türkiyənin Suriyada uğurla həyata keçirdiyi hərbi əməliyyatlardır. Düzdür, əməliiyatlar beş gün müddətinə dayandırılıb və proseslərin gedişi razılaşdırılmış 5 gün başa çatandan sonra onun daha geniş miqyasda davam etməsini istisna etmir, çünki PKK terrorçularının heç də hamısı Türkiyənin qoyduğu şərtə əməl edərək nəzərdə tutulan ərazidən tam şəkildə çıxmayıb.**

Xatırladaq ki, PKK terror təşkilatı və dəstəkçilərinə Türkiyə sərhədindən 30 kilometr cənuba geri çəkilmələri üçün verilən 120 saatlıq müddət oktyabrın 22-də gecə saat 22:00-da başa çatacaq. "Sülh çeşməsi" hərəkatına bu məqsədlə verilən 5 günlük fasilə müddətində PKK, YPG-nin müəyyən sayda qüvvələri bölgədən çıxıb. 765 terrorçunun zərərsizləşdirildiyi, yüzlərlə terrorçunun yaralandığı və qaçdığı təşkilat ilk olaraq yaralıların təxliyəsi üçün Ras əl Eynə 39 avtomobildən ibarət təcili yardım konvoyu aparıb. Türkiyə Silahlı Qüvvələrinin nəzarəti ilə keçən avtomobillər yaralıları Təl Əmir bölgəsinə aparıb. Türkiyənin Müdafiə naziri Hulusi Akar hərəkatla bağlı açıqlamasında türk ordusunun çəkilmə prosesini yaxından izlədiyini deyib: "Proses ABŞ-la birlikdə izlənir. Ras əl Eyndən təşkilata aid 125 avtomobil çıxıb. Proses üçün verilən müddətin başa çatmasına az qalıb". Təhlükəsizlik qaynaqları Ras əl Eyn mahal mərkəzindən PKK-çıların yalnız yarısının çəkildiyini bildirib. Şəhərdə minə yaxın terrorçunun olduğu ehtimal edilir.

Buna baxmayaraq, PKK Təl Abyaddan çıxmaq haqqında düşünmür. Terrorçular Təl Abyadın qərbinə sığınmağa çalışır. Belə vəziyyətdə Türkiyə hərbi əməliyyatların davam etdirilməsini qaçılmaz sayır. Bu fonda isə, ABŞ prezidenti Donald Trampın qərarına uyğun olaraq, ABŞ-ın Suriyadakı əsgərlərinin çəkilmə prosesi davam edir. Bu çərçivədə artıq Eyn İsa şəhərindəki "La Farge" fabriki, Hesekedəki Təl Bəydar bazası, Eyn əl-Ərəb və Münbiçdəki Dadat düşərgəsi boşaldılıb. Rəsmi Vaşinqton Suriyanın şimal-şərqindən çıxardığı hərbçilərini İraqa göndərməyi planlaşdırır. ABŞ müdafiə naziri Mark Esper 700-dən çox hərbçinin İraqın cənubunda yerləşdiriləcəyini və İŞİD-ə qarşı mübarizəni davam etdiricəklərini deyib. Qeyd olunur ki, Britaniya Xüsusi Hava Xidmətinin Xüsusi Qüvvələrə Dəstək Qrupunun əsasən paraşütçülərdən ibarət olan naməlum sayda hərbi qulluqçusu da çıxarılanlar arasında olub. Məlumata görə, çıxarılan hərbi qulluqçular arasında az sayda fransız da olub.

Qərb ölkələrinin atdığı bu addım indi Ermənistanda böyük təşvişlə qarşılanır, onlar hesab edir ki, ABŞ və Avropa Türkiyə qarşısında geri çəkilib. Erməniləri narahat edən odur ki, Suriyada istəyinə nail olduqdan sonra Cənubi Qafqaza daha çox diqqət yetirəcək Türkiyəyə Qərb hansısa formada müqavimət göstərməyəcək. Erməni ekspert Ruben Akopyan bildirir ki, bu şəraitdə Türkiyənin regionda Ermənistan üzərində təzyiqi daha çox hiss ediləcək: "Təəssüf ki, Yaxın Şərqdə cərəyan edənlərin nəticələri Ermənistanın lehinə deyil. Qərblə yanaşı, Rusiyanın da Türkiyəyə yaratdığı şərait Ankaranın geosiyasi mövqelərini əhəmiyyətli dərəcədə gücləndirir. Türkiyənin isə Ermənistana münasibəti məlumdur". Bununla yanaşı, Ermənistanda belə çağırışlar da səslənir ki, Rusiya Türkiyə ilə sıx işbirliyini davam etdirib onun geosiyasi mövqelərinin güclənməsinə şərait yaradırsa, rus qoşunlarının Ermənistanda saxlanmasına ehtiyac yoxdur. Məsələn, erməni politoloq Aram Amatuni bildirir ki, yaranmış durumda rus ordusuna ehtiyac aradan qalxır: "Bir çoxu Türkiyənin Suriyadakı əməliyyatlarını Ermənistanda Rusiya hərbi bazasının mövcudluğuna haqq qazandırmaq və bu mövcudluqla bağlı hər hansı danışıqları, iradları rədd kimi qəbul edir". Onun sözlərinə görə, hətta belə təəssürat yaranır ki, bu insanlar Suriyanın şimalındakı vəziyyətdən bir o qədər də narahat deyillər, onları narahat edən əsas amil Rusiya hərbi bazası və onun Ermənistandakı mövcudluğu barədə hər hansı bir müzakirəni istisna edə bilməkdir: "Ümumiyyətlə, burada problem daha genişdir və əslində ictimai şüurda Rusiyanın "xilaskar" rolunda olması güclü bir şəkildə ortaya atılır, "Türk amili" də bu məqsədlə istifadə olunur. Türkiyənin erməni amili ilə problemləri var və Ermənistanla həmsərhəddir. Bu kontekstdə, Rusiyanın Ermənistandakı hərbi bazası ilə bağlı mühakimələrlə ifadə olunan geniş bir tendensiya mövcuddur". Politoloq qeyd edib ki, Rusiyanın Ermənistanın hərbi və siyasi təhlükəsizliyində böyük rol oynaması və Rusiya hərbi bazasının bu baxımdan ən vacib vasitə olması şübhə altındadır: "Hərbi bazanın Ermənistandan çıxarılmasına dair qəti iddiaların olduqca primitiv və ekstremal olması da şübhəsizdir. Ancaq problem burasındadır ki, əvvəla, hərbi bazanın mövcudluğu və Rusiyanın vacib rolu hələ də bu rolun fasiləsiz realllaşacağını bildirmir. Biz Rusiyadan aprel döyüşlərində yalnız ermənilərin hissləri ilə oynayarkən deyil, onu Türkiyə və Azərbaycanla ticarət obyekti halına gətirməkdə mühüm rol oynadığı vaxt əmin olduq. Buna görə, əsas məsələ Rusiyanın və onun hərbi bazasının Ermənistanın maraqları və təhlükəsizliyi kontekstində oynadığı, bu maraq və təhlükəsizliyin türklərlə ticarət edilməməsi vəziyyətinin necə qurulmasıdır. Burada vacib olan odur ki, Rusiyanın ən əsas rolunu qeyd edərkən erməni xalqı heç vaxt "rolu və əhəmiyyəti" unutmasın. İstənilən halda, onun təhlükəsizliyinin heç bir xilaskardan qaynaqlanmadığını bilməli və bu "xilaskar" olmadan biz itib-batarıq deyə düşünməməlidir. Rusiyanı rolunu oynamağa məcbur etmək və onu türklərlə təhlükəsizliyimiz hesabına ticarətdən çəkindirmək üçün əsas səbəblərdən biri budur ki, Rusiyadan başqa müttəfiq və tərəfdaş təhlükəsizlik alternativimiz olmadığını heç vaxt düşünməməliyik. Buna görə Suriyadakı mövcud vəziyyət fonunda, əlbəttə ki, Rusiyanın Ermənistanla bağlı bir sıra problemli siyasi məqamlarının olduğunda israr etmək, amma təhlükəsizliyə alternativimiz yoxdur deyə bəzi mürəkkəb təbliğat texnologiyasından istifadə edilməsi təhlükəlidir. Bu, təhlükəli Rusiya-Türkiyə ticarətinin Ermənistanın hesabına başlaması və Ermənistanın və ermənilərin şüuruna alternativlərin olmamasını yeritməklə başlayır".




O bildirir ki, belə vəziyyətdə rus ordusunun Ermənistandan çıxması hansısa ciddi təhdid mənbəyinə çevrilməyəcək.

***Nahid SALAYEV***

**Dünyanın ən böyük ixracatçı ölkəsi olan Çinin son dövrlərdə Azərbaycan üzərindən yükdaşımalara daha çox diqqət yetirməsi müşahidə olunur. Belə görünür ki, ölkəmizin coğrafi mövqeyi və burada qurulan nəqliyyat infrastrukturu Azərbaycan üzərindən daşınan Çin yüklərinin həcmini əhəmiyyətli dərəcədə artıracaq.**

# Dünya ölkələri Çinin, Çin isə Azərbaycanın imkanlarından faydalanmağa can atır...

Bu arada isə məlum olub ki, yükləri Azərbaycan üzərindən dünya bazarlarına çıxaran Çin şəhərlərinin sayı da artır. Belə ki,

Çinin Xian şəhərindən də gələn yüklər artıq Azərbaycan üzərindən keçəcək.

Bu şəhərdən Çexiyanın paytaxtı Praqaya Transəzər Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə 42 konteyner daşıyacaq qatar Bakı-Tiflis-Qars yolu ilə, daha sonra da Bosfor boğazı altından keçən "Marmaray" xətti vasitəsilə Avropaya gedəcək ilk yük qatarı olacaq. Bununla bağlı olaraq noyabrın 5-də İstanbulda qarşılanma mərasimi keçiriləcək qatar "China Railway Express"ə məxsusdur.

Qeyd edək ki, aprel ayında Pekində keçirilən "Bir kəmər, bir yol" Beynəlxalq İqtisadi forumu zamanı Transəzər Beynəlxalq Nəqliyyat Dəhlizi Assosiasiyasına daxil olan "ADY Container LLC" ilə Çinin "Xian Continental Bridge International Logistics" şirkəti arasında imzalanan müqaviləyə əsasən, tərəflər cari ilin sonunadək 30 konteyner qatarı yola salmağı öhdəsinə götürüb.

Pekin burada onu da nəzərə alır ki, Çindən gələn malların Avropaya daşınması üçün Azərbaycanda mükəmməl infrastruktur yaradılıb. Ölkəmizin Qazaxıstanın Aktau limanından yükləri daşımaq üçün 260 gəmidən ibarət güclü donanması var. Bu yüklərin boşaldılması və yola salınması üçün isə Ələtdə beynəlxalq əhəmiyyətli liman tikilib. Limandan yüklərin Avropa ölkələrinə daşınması üçün Bakı-Tiflis-Qars fəaliyyət göstərir. Eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edir. Məhz bütün bunlar Çinin, digər layihələrlə müqayisədə, Azərbaycana, xüsusən də Bakı-Tiflis-Qarsa daha çox diqqət ayırmasına rəvac verir. Burada onu da vurğulayaq ki, Azərbaycan müasir nəqliyyat və logistika infrastrukturu yaratması ilə mühüm nəqliyyat mərkəzinə çevrilməklə bərabər, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığı da genişləndirir. Xüsusən də "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi geniş şəkildə təşviq edir. Hesablamalara əsasən isə, 2020-ci ilə qədər Şərq-Qərb istiqamətində Çin tərəfdən Qərbə göndərilən yüklər 5 dəfə artaraq 1,3 milyon konteynerə çatacaq. Bunun 300 mini məhz Qafqaz marşrutu ilə daşınacaq. Azərbaycan və Qazaxıstandan keçməklə Avropadan Mərkəzi Asiya ölkələrinə və Çinə və əks istiqamətdə yük axını iki dəfədən çox artacaq. Məhz belə vəziyyətdə Bakı-Tiflis-Qars üzərindən yükdaşımalar əhəmiyyətli dərəcədə artacaq ki, bu da tranzit yükdaşımaların ölkəmizə daha çox gəlir gətirməsi deməkdir.




Burada daha bir vacib məqam həm də Azərbaycan məhsullarının mövcud marşrutlarla daha asan şəkildə Çin bazarına çıxmasıdır. Ümumiyyətlə, Çinlə iqtisadi, eləcə də siyasi əlaqələrin genişləndirilməsi Azərbaycan üçün mühüm üstünlüklər yaradır. Məsələ burasındadır ki, müasir dünyada bütün dövlətlər Çin bazarı uğrunda mübarizə aparır. Hətta bu gün Çinlə ticarət müharibəsi aparan ABŞ da Donald Trampdan əvvəlki prezidentlərin dövründə Çin bazarında mövqeyə sahiblənmək uğrunda ciddi mübarizə aparıb. Bu dövrdə Çində onlarla ABŞ müəssisəsi açılıb. Eləcə də Avropa da çalışır ki, Çin bazarından pay götürsün. Bu baxımdan, Azərbaycanın da dünyanın ikinci ən böyük iqtisadiyyatına malik ölkənin bazarına xüsusi diqqət yetirməsi tamamilə təbiidir. Artıq Azərbaycanın bir çox məhsulları, xüsusən də şərab məmulatları Çində böyük məmnuniyyətlə alınır və onların çeşidinin daha da artması gözlənilir. Ümumiyyətlə, bundan sonra Çinlə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da genişlənməsi gözlənir. Bu genişlənmə Azərbaycanın iqtisadiyyatı diversifikasiya etməsi üçün böyük imkanlar yaradır. Onu da qeyd edək ki, Çinlə münasibətlərin genişlənməsini Azərbaycan üçün yalnız tranzit ölkə olaraq rolunun artması nöqteyi-nəzərindən baxmaq lazım deyil. Tranzit imkanları bu münasibətlərin yalnız bir detalı sayılır. Azərbaycan Çinlə əlaqələrdən investisiya cəlbi, müasir texnologiyaların inkişafı, yerli istehsalın qurulması baxımından yararlanmağa çalışır. Təbii ki, hadisələrin bu səpkidə inkişafına tranzit yükdaşımalar ciddi təsir göstərir.

Onu da xatırladaq ki, bir müddət əvvəl Pekində baş tutan "Bir kəmər, bir yol" strategiyası çərçivəsində ikinci beynəlxalq əməkdaşlıq forumu zamanı Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon dollar olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb. Daha sonra Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, Azərbaycan istehsalı şərab və digər spirtli içkilərin daha böyük həcmdə Çinə ixracına dair yeni razılıqlar əldə olunub.

Bütün bunlar göstərir ki, Çinlə Azərbaycan arasındakı iqtisadi əməkdaşlıq bir neçə aspektdən qiymətləndirilə bilər. İlk növbədə Azərbaycanın müvafiq infrastrukturunun olması və əlverişli geosiyasi mövqedə yerləşməsi ölkələrin tranzit daşımalarında əməkdaşlığını dərinləşdirir. Bundan başqa, yuxarıda qeyd olunduğu kimi, Çin çox böyük bir bazardır. Azərbaycan məhsullarının bu bazarlara ixracı üçün yeni imkanlar yaranır. Məhsullarımızın Çin bazarlarına daşınması daha az xərclə başa gəlir və bu da onların rəqabət qabiliyyətini artırır. Digər tərəfdən, il ərzində Çindən Azərbaycana 1,5 milyard dollar mal və xidmətlər idxal olunur. İnfrastrukturun əlverişliliyi məhsulların Azərbaycana gətirilməsi üçün şərtləri daha da uyğun edir və xərcləri azaldır. Başqa bir məsələ investisiya məsələsidir. Azərbaycanda müvafiq infrastrukturun olması Çin investorlarının Azərbaycanda iqtisadiyyatın müəyyən sahələrinə investisiya yatırmasına və istehsalla məşğul olmasına əlverişli şərait yaradır. Bütün bunlar ölkəmizə mühüm üstünlüklər vəd edir.

***Tahir TAĞIYEV***

**Son zamanlar Azərbaycanda qadınlara qarşı zorakılığın artması ilə bağlı həqiqətə uyğun olmayan informasiyalar yayılır. Bəzi qeyri-hökümət təşkilatları ailə-məişət müstəvisində baş verən hadisələri şişirdərək bu halın Azərbaycan cəmiyyətində "pik" həddinə çatdığını qeyd edirlər.**

# BMT Azərbaycanda qadın zorakılıqları faktlarını niyə bu qədər şişirdir?

## *Fatimə Hacıbəyli: "BMT Azərbaycana qarşı bütün məsələlərdə, o cümlədən də qadınlarla bağlı hadisələrə yanaşmada həmişə qərəzli mövqe göstərib"*

Əvvəlcədən onu qeyd edək ki, beş-on ailədə baş verən və azsaylı qadınların məruz qaldığı zorakılıq halının "kütləvi xarakter" daşıdığını deməyin özü yanlışdır. Təəssüf ki, ölkə mətbuatında "kütləvi" hal kimi qeyd edilən bu məsələ tez bir zamanda beynəlxalq təşkilatların da qulağına çatdırılır. Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən beynəlxalq qurumlar da reallığı əks etdirməyən bu məlumatları öz hesabatlarına daxil edir və bununla bağlı bəyanatlar yayırlar. BMT kimi...

BMT Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı bəyanat yayıb. Bəyanatda qeyd edilir ki, Azərbaycanda qadın və qızlara qarşı əksər hallarda ölümlə nəticələnən zorakılıq hallarına dair son məlumatlar fonunda Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi zorakılığın müxtəlif formalarına məruzqalma təhlükəsi ilə üz-üzə olan qadın və qızların müdafiəsi və bu cür zorakılıq hadisələrinin törədilməsində təqsiri olan şəxslərin məsuliyyətə cəlb edilməsi ilə əlaqədar təcili və birgə fəaliyyətə çağırır.

Nümayəndəlikdən mətbuata daxil olan məlumata görə, qadın və qızlara qarşı zorakılıq fərdlərə, ailələrə, cəmiyyətlərə və bütövlükdə, ölkəyə ciddi sosial və iqtisadi zərbə vurur. Bəyanatda bildirilir ki, qadın və qızlara qarşı zorakılıq ölkənin artım və inkişaf səylərini sarsıdır.

BMT-nin apardığı tədqiqat müəyyən edib ki, qadınlara qarşı zorakılıq Azərbaycana 764 milyon ABŞ dollarına başa gələ bilər ki, bu da ölkə ÜDM-nin 2%-nə bərabərdir. Buraya bərpası mümkün olmayan insan itkiləri, fəaliyyət qabiliyyətsizliyi, əlillik, zorakılığa məruz qalmış şəxslərin əmək qabiliyyətinin azalması, eləcə də zorakılığa cavab tədbirlərinə çəkilən xərclərlə bağlı olan iqtisadi itkilər daxildir.

Lakin hər şeydən öncə, qadın və qızlara qarşı zorakılıq həyatları, ailələri və gələcəyi məhv edir. Hər bir zorakılıq aktının insan həyatına təsiri ölçülə bilməyəcək dərəcədədir və bu, Azərbaycanın özünə rəva bilmədiyi, eləcə də heç bir qadın və qızın ödəməli olmadığı qiymətdir.

"Biz bu problemin həlli üçün Azərbaycan hökumətinin göstərdiyi siyasi iradə və əzminə bələdik, lakin bununla bağlı daha çox iş görülməlidir.

Azərbaycan hökuməti təcili olaraq Avropa Şurasının İstanbul Konvensiyasını ratifikasiya etməlidir. Bu konvensiya beynəlxalq standartlara uyğun olaraq zorakılığın yayılma miqyasına dair araşdırma, zorakılıq risqinə məruz qalanların daha yaxşı qorunması, zorakılıqdan zərərçəkmişlər üçün xüsusi xidmətlər və cinayətkarların məsuliyyətə cəlb olunması kimi tədbirləri nizamlayır.

Zorakılıqdan zərərçəkmişlərin müdafiəsi və dəstəklənməsi üzrə praktiki tədbirlərə, o cümlədən, əlçatan və münasib əlaqələndirilmiş yönləndirmə və yardım xidmətlərinə qoyulan sərmayənin həcmini artırmaq lazımdır.

Zərərçəkmişlərin və şahidlərin müdafiəsinə, eləcə də zorakılığı törədən şəxslərin cəzasız qalmasına yol verilməməsinə xüsusi diqqət yetirilərək qadın və qızlara qarşı baş verən zorakılıq halları ilə bağlı bütün məlumatlar operativ və hərtərəfli araşdırılmalıdır.

Nəhayət, Azərbaycanda hər bir kəs qadın və qızlara qarşı zorakılığın baş verdiyi istənilən hadisə barədə səsini ucaltmalı və məlumat verməlidir - zorakılıq qarşısında səssiz qalmaq yolverilməzdir" -deyə bəyanatda bildirilir.

Bəyanatda daha sonra vurğulanır ki, Birləşmiş Millətlər Təşkilatı, öz növbəsində, Azərbaycanda zorakılıq risqinə məruz qalanların daha yaxşı qorunması üçün bütün ölkə üzrə hökumət və digər tərəflərlə sıx əməkdaşlığı davam etdirəcək.

"O cümlədən, BMT aztəminatlı qadın və qızlar üçün sosial xidmət proqramlarının dəstəklənməsi, qadınların işlə təmin edilməsi və özünü inkişaf etdirməsi üçün daha geniş imkanların yaradılması, qız və qadınlara qarşı zorakılığın əlamətlərinin müəyyən edilməsi və bununla bağlı cavab tədbirləri görmək üçün mütəxəssis və icma işçilərinin təlimləndirilməsi, eləcə də hər il noyabrın 25-dən dekabrın 10-dək keçirilən gender zorakılığına qarşı mübarizə üzrə növbəti 16 günlük kampaniya kimi ictimaiyyətin məlumatlandırılması ilə bağlı təşəbbüslər həyata keçirir. Bu kampaniya hər kəsin bir araya gələrək qadın və qızlara qarşı zorakılıq problemini işıqlandırmağa və bu dəhşətli hadisələrə qarşı səsini ucaltmağa imkan yaradır" - deyə sənəddə qeyd edilir.

BMT-nin Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı yaydığı bəyanata münasibət bildirən "Vəfa" Sosial İctimai Birliyinin sədri, sosioloq Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə bildirdi ki, bu təşkilat zaman-zaman Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirib, son bəyanatı da buna nümunədir. F.Hacıbəyli qeyd etdi ki, son zamanlar ailədaxili zorakılıqla üzləşən bir neçə qadının problemini şişirdən bəzi "qadın hüquq müdafiəçiləri" və müəyyən media orqanları bunu "kütləvi hal" kimi qeyd etməklə yanlışlığa yol veriblər. "BMT-nin yaydığı son bəyanatda birmənalı olaraq qərəz var. Bütün cəmiyyətlərdə qadınların ailədaxili münaqişə zəminində zorakılığa məruz qalması halları olur. Bizimlə müqayisədə Ermənistanda bu hal daha kütləvidir. Bu ölkədə nəinki qadınlar, həm də uşaqlar zorakılıq hallarına məruz qalırlar. Ölkəmizdə son dövrlər bir neçə qadının əri tərəfindən döyülməsi, işgəncə verilməsi, zorakılığa məruz qalması halları baş verib, amma bu kütləvi deyil. Üç-beş nəfərin məruz qaldığı zorakılıq hallarını bütün ölkə qadınlarına şamil etməyin özü düzgün deyil. Bəziləri bu məsələni qəsdən şişirdərək onu beynəlxalq təşkilatlara "kütləvi hal" kimi təqdim etməklə yanlışlığa yol verir. Tutalım, sabah Azərbaycanın adı müxtəlif təşkilatların qətnamələrində "qadınların kütləvi zorakılığa məruz qaldığı ölkə kimi" hallandırılsa, bundan o adamlar nə qazanacaqlar? Heç nə. BMT Azərbaycana qarşı bütün məsələlərdə, o cümlədən də qadınlarla bağlı hadisələrə yanaşmada həmişə qərəzli mövqe göstərib. BMT qadın hüquqlarının qorunmasına belə önəm verirsə, bəs onda nə üçün illərdir erməni əsirliyində zülm çəkən Azərbaycan qadınlarının erməni zorakılığına məruz qaldığını, onların psixoloji, mənəvi sarsıntılar keçirdiklərini, fiziki işgəncələr gördüklərini bir dəfə də olsun gündəliyə salmır, bu barədə bəyanat yaymır. Azərbaycanda qadına qarşı kütləvi zorakılığın olduğunu demək, bu barədə bəyanat yaymaq, bu bəyanatda əsassız iddialar irəli sürmək BMT-nin Azərbaycana qarşı qərəzli münasibətinin təzahürüdür".

F.Hacıbəyli vurğuladı ki, müasir Azərbaycan qadını həm dövlət qurumlarında, həm özəl sektorda, həm də ictimai təşkilatlarda kütləvi olaraq fəaliyyət göstərir, ən ucqar dağ kəndlərində doğulan qızlar ölkənin nüfuzlu ali təhsil məktəblərində oxuyur, dövlət qulluğunda çalışır, elmi iş müdafiə edirlər. Bütün bunların Azərbaycanda qadınların kütləvi zorakılığa məruz qalmamasının göstəricisi olduğunu deyən F.Hacıbəyli hesab edir ki, Azərbaycanda baş verən kiçik bir hadisənin beynəlxalq müstəviyə çıxarılması düzgün deyil.



*"...Avropa dövlətlərinin özü də tam olaraq bu sənədə qoşulmayıb"*

F.Hacıbəyli BMT-nin Azərbaycanı İstanbul Konvensiyasına qoşulmağa çağırmasına da münasibət bildirdi. O hesab edir ki, İstanbul Konvensiyasının zorakılığa məruz qalmış qurbanları müdafiə etmək və dəstəkləmək potensialı var, amma Azərbaycanın hazırda bu konvensiyanı qəbul etməsinə ehtiyac yoxdur. F.Hacıbəyli vurğuladı ki, İstanbul Konvensiyası kimi tanınan sənədin tam adı "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası"dır. Ekspertin sözlərinə görə, bu sənəd Avropa Şurası Parlament Assambleyasında qəbul edilməklə 2011-ci il mayın 26-da Türkiyənin İstanbul şəhərində imzaya açıq elan olunub. "Bu gün BMT Azərbaycana bu sənədə qoşulmaqla bağlı çağırış edir. Deyim ki, başqa dövlətlər də, elə Ermənistanın özü də bu konvensiyaya qoşulmaqdan imtina edib. Hətta Avropa dövlətlərinin özü də tam olaraq bu sənədə qoşulmayıb. Azərbaycanda qadına qarşı şiddət, zorakılıq o həddə deyil ki, biz bu konvensiyaya qoşulaq. Ölkəmizdə gender bərabərliyi dövlət səviyyəsində təmin edilir. Bizim ölkəmizdə gender bərabərliyi kəskin şəkildə pozulmur. Pozulsaydı, bu gün qadınlar cəmiyyətin önündə olmazdılar. Bu gün dövlət qulluğunda, biznesdə, səhiyyədə, təhsildə, ictimai fəaliyyət sahəsində, QHT sektorunda kifayət qədər qadın var" - deyə F.Hacıbəyli qeyd etdi.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



# Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi...

## Müstəqillik dövründə Azərbaycanda sayca 3-cü siyahıyaalma yaddaşlarda necə qaldı...

**Oktyabrın ilk ongünlüyündə Azərbaycan ictimaiyyəti ölkədə növbəti siyahıyaalma prosesinə şahidlik etdi və bu proses özü ilə bir sıra suallar da gətirdi. Bəllidir ki, 10 ildən bir əhalinin siyahıyaalmasının keçirilməsini BMT-nin Statistika Komissiyası tövsiyə edir. Həmin komissiya tərəfindən verilən izahda əhalinin siyahıyaalınması "zamanın müəyyən bir vəziyyətinə ölkədə olan bütün şəxslərə və ya ölkənin dəqiq müəyyən edilmiş hissələrinə aid olan demoqrafik, iqtisadi və sosial məlumatların toplanması, yekunlaşdırılması, qiymətləndirilməsi, təhlili, nəşri və ya başqa şəkildə yayılmasından ibarət vahid proses" olaraq dəyərləndirilir.**

Sirr deyil ki, ictimai fikirdə əhalinin siyahıyaalınması deyəndə, birmənalı şəkildə bu, ölkə əhalisinin yalnız sayının dəqiqləşdirilməsi kimi başa düşülür. Çünki çox insan xəbərsizdir ki, siyahıyaalma əhalinin nəinki sayının, eyni zamanda onun məşğuliyyəti, maddi rifah halı, məskunlaşma səviyyəsi və digər bu kimi sosial məsələlərin dəqiqləşdirilməsində önəmli rol oynayan ictimai-siyasi prosesdir. Elə prosesin bu özəlliyi barədə məlumatın azlığından irəli gəlir ki, bəzən siyahıyaalmanın keçirilməsinin gərəkliyi şübhə altına alınır. Bu fikirdə olanlar isə mövqelərini belə əsaslandırırlar ki, ölkədə istər doğum, istərsə də ölüm sayının statistikası aparılırsa, əlavə xərclər və resursslar hesabına siyahıyaalma prosesi aparmağın mənası yoxdur. Əslində isə müvafiq orqanların əhalinin ölkə ərazisində məskunlaşması, yerlərdə mövcud olan əmək ehtiyatları balansı, istehsal, ictimai-iaşə obyektlərinə, məktəblərə, xəstəxanalara, sanatoriya və istirahət evlərinə harada nə qədər ehtiyacın olması haqqında məlumatlı olması üçün bu prosesin periodik olaraq keçirilməsi zəruridir. Əks halda uşaq bağçaları, körpələr evləri, digər sosial əhəmiyyətli obyektlərin tikintisi, istehlak məhsullarına tələbatın planlaşdırılması kimi əhalinin cinsi, yaşı və say tərkibi ilə bağlı məlumatlar əsasında həyata keçirilən proseslər özünü doğrultmaz. Bütün bunlar haqqında ən dəqiq informasiyanı isə yalnız əhalinin siyahıyaalınması kimi kütləvi proses nəticəsində əldə etmək mümkündür.

Demoqrafik məlumatlar ərzaq təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Eyni sözləri mənzil tikintisinin planlaşdırılması ilə də bağlı söyləyə bilərik. Çünki bu planlaşdırmanın ev təsərrüfatlarının sayı, tərkibi və onların məişət şəraiti haqqında məlumatlar olmadan həyata keçirilməsi mümkünsüzdür. Elə Dövlət Statistika Komitəsi Siyahıyaalma qrupunun rəhbəri A.Abbasəliyev də deyir ki, siyahıyaalma təkcə sayı müəyyənləşdirmək üçün deyil, bu proses əhali barəsində ətraflı, dolğun məlumatların əldə edilməsi məqsədilə keçirilir: "Siyahıyaalma və sorğu vərəqələrinin suallarının cavablandırılmasından əldə edilmiş məlumatlardan ölkənin perspektiv inkişaf proqramlarının, proqnozların hazırlanmasında, hər bir yaşayış məntəqəsi üzrə əhalinin yaşayışının planlaşdırılmasında istifadə olunacaq, o məlumatlar gələcək 10 ildə istifadə olunacaq".

### Azərbaycanda statistika haqqında qanunvericilik necə yarandı...

Müasir statistika tariximizdə əhalinin siyahıyaalınmasının həyata keçirilməsinə başlanması mərhum prezident Heydər Əliyevin adı ilə bağlıdır. Bu proses ilk dəfə onun 1996-cı il fevralın 22-də imzaladığı "1999-cu ildə əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 442 nömrəli Fərmanla baş tutub. Həmin dövrdə müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın siyasi və iqtisadi həyatında baş verən köklü dəyişikliklər rəsmi statistikada ciddi islahatların aparılmasını tələb edirdi. Özünün müstəqil iqtisadiyyatını sıfırdan başlayaraq qurmalı olan ölkədə, üstəlik, Ermənistanın təcavüzü nəticəsində demoqrafik durum da bərbad hala düşmüşdü. Eyni zamanda, ölkə statistikasının dünya statistikasına inteqrasiyası, beynəlxalq səviyyədə qəbul olunan standartların tətbiqi zərurəti şərt və günün tələbi kimi çıxış edirdi. Lakin təbii ki, bunun üçün öncə hüquqi əsas yaradılmalı idi ki. Beləliklə, 18 fevral 1994-cü ildə "Statistika haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanır. İqtisadi subyektlərin dövlət reyestrinin və beynəlxalq təsnifatlarla uzlaşdırılmış milli təsnifatların yaradılması, ölkə ərazisində dövlət statistika müşahidələrinin keçirilməsi, statistik sirr, dövlət statistika orqanları işçilərinin sosial müdafiəsi və s. ilə bağlı xüsusi maddələrin əks olunduğu Qanun ölkədə statistik hesabat intizamının yüksəlməsi və dövlət məlumatlandırma sisteminin əsas tərkib hissəsi sayılan milli statistika sisteminin təkmilləşdirilməsində əsas rol oynayır və beləliklə, Azərbaycan tarixində ilk dəfə statistika sahəsində əsas anlayışlar, onun subyektlərinin hüquq və vəzifələri, fəaliyyətinin əsas parametrləri qanunvericiliklə müəyyənləşir.

1999-cu ilin 9 dekabr tarixində demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi məqsədilə Demoqrafik İnkişaf Konsepsiyası təsdiq edilir. Milli maraqların nəzərə alınması ilə Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş bir sıra müvafiq beynəlxalq sənədlərin prinsiplərinə əsaslanan Konsepsiya əsasında isə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" hazırlanaraq təsdiq edilir. Əhalinin orta ömür həddini artırmaq, ana və uşaqların müdafiəsini gücləndirmək, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi zəmin yaratmaq və miqrasiya proseslərinin tənzimlənməsi yollarını müəyyən etmək məqsədi daşıyan bu Proqram ölkədə demoqrafik inkişafın ortamüddətli strategiyasını müəyyənləşdirməklə, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair qəbul edilmiş digər dövlət proqramları ilə əlaqəli şəkildə həyata keçirilir.

### Anket sorğularında Prezidentin sosial paketlər siyasətinə dəstək...

Bu il keçirilən siyahıyaalmada, əvvəlki iki prosesdən fərqli olaraq, suallar daha geniş formatda tətbiq edildi. Maraqlı cəhət isə ondan ibarətdir ki, ilk dəfə olaraq anket sorğuları sırasına insanların sağlamlığı, əlillik və sağlamlıq imkanlarının məhdudluq dərəcəsi ilə yanaşı, şəxsin işləyib-işləməməsi, işləyirsə təminatından razı qalıb-qalmaması, daha təminatlı iş axtarıb-axtarmaması və s. kimi önəmli məsələlər daxil edildi. İstisna deyil ki, Prezident İlham Əliyevin bu ilin əvvəlindən əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra ciddi addımlar atması, ard-arda sosial paketlərin tətbiqi ilə bağlı fərmanlar imzalaması burada öz sözünü demişdi. Yəni anket sorğularının bu istiqamətdə artırılmasında məqsəd ölkədə işsizliyin səviyyəsi, sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraiti, təhsili, məşğulluğu və əhalinin siyahıyaalınması çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların yaşayış yeri və yaş qrupları üzrə əldə edilməsi idi ki, bu da, əlillərin sosial müdafiəsi və onların cəmiyyətə inteqrasiyası ilə yanaşı, yoxsulluğun və işsizliyin aradan qaldırılması ilə bağlı dövlət siyasətinin davamı üçün zəruri məlumatların əldə edilməsindən ötrü önəmli idi.

Məlum həqiqətdir ki, əhalinin iqtisadi ehtiyacları və davranışları ictimai həyatın müxtəlif mərhələlərində fərqli olur və onların yaş-cins strukturunda baş verən dəyişikliklər ölkənin ümumi iqtisadi fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Uşaqların və gənclərin sağlam mühitdə formalaşması isə səhiyyə və təhsil sahələrinə investisiya qoyulmasını tələb edir. Buna görə də əhalinin sayı, tərkibi və məskunlaşması, eləcə də artım tendensiyası haqqında məlumatlar mühüm iqtisadi, siyasi və elmi əhəmiyyət kəsb edir. Əhali haqqında ən dolğun məlumatlar isə məhz əhalinin siyahıyaalınması nəticəsində əldə edilir və heç şübhə yoxdur ki, əhalinin növbəti dəfə siyahıyaalınmasının keçirilməsi və əldə olunan statistik göstəricilər ölkə rəhbərliyinin əhalinin maddi rifah halının daha da yaxşılaşdırılması yönündə apardığı siyasətə öz töhfəsini verəcək.

### BMT tövsiyə edir, bəs ölkənin özündə necə, siyahıyaalmaya zərurət vardımı?

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov deyir ki, Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilmiş islahatlar nəticəsində ötən siyahıyaalmadan sonrakı dövr ərzində ölkənin bütün sahələrində 10 ilə sığmayan ciddi uğurlar əldə edilib: ölkə iqtisadiyyatına 198,3 milyard manat investisiya yönəldilib, regionlarda infrastruktur yenidən qurulub, əhalinin gəlirləri 2,6 dəfə artıb, 1,4 milyon yeni iş yeri açılıb, yoxsulluq səviyyəsi 2,0 dəfədən çox azalıb, beynəlxalq miqrasiyada davamlı olaraq hər il müsbət saldoya nail olunub. Komitə sədri bildirib ki, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən çoxsaylı sosial layihələr reallaşdırılıb, qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirilib və görülmüş işlər nəticə etibarilə ölkədə demoqrafik vəziyyətə, əhali sakinliyinə çox böyük təsir göstərərək növbəti siyahıyaalınmanın keçirilməsi üçün əsaslı zəmin yaradıb.

Dövlət Statistika Komitəsi Siyahıyaalma qrupu rəhbərinin müavini Ruslan Əliyevin sözlərinə görə, siyahıyaalma anketində yer alan suallar 19 dövlət orqanına göndərilən sorğu əsasında tərtib olunub. 280-ə yaxın göstərici əsasında qurulan sorğu vərəqəsində hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli (etnik) mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və s. kimi mühüm göstəricilər üzrə suallar öz əksini tapıb. Siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə, alt suallar da daxil olmaqla, 46 sual nəzərdə tutulub, halbuki, ötən siyahıyaalmada bu say 35 olub. O da bəllidir ki, siyahıyaalma zamanı bəzən sakinlər sorğulara candərdi, yaxud həqiqəti əks etdirməyən formada cavab verir. Bunun bir səbəbi də hazırda bir çox ailələrin ən müxtəlif səbəblərdən pasport qeydiyyatında olduğu ünvanda yaşamamasıdır. Onlar bəzi hallarda bunun özlərinə irad tutulacağından çəkinir, nəticədə isə siyahıyaalmanın dəqiqliyini şübhə altında qoyurlar.

Abbasəliyev siyahıyaalmanın yekunları ilə bağlı deyir ki, 2020-ci ildən sonra emal prosesi başlayacaq, 2022-ci ilin sonunda isə siyahıyaalma məlumatları məcmuə şəklində nəşr olunub istifadəçilərə çatdırılacaq: "Bu siyahıyaalma ilə 10 ildən bir əhaliyə dair bütün statistika yenilənir. Hamısına olmasa da, əksər statistik göstəricilərə siyahıyaalmanın təsiri var. İstər elmi təşkilatlarda, istər müxtəlif dövlət qurumlarında, istər hökumət tərəfindən qəbul edilmiş qərarlarda siyahıyaalmadan əldə olunmuş materiallardan geniş istifadə olunur".

Siyahıyaalmanın daha bir özəlliyi ondadır ki, bu, məcburi proses deyil, lakin onda iştirak hər kəsin vətəndaşlıq borcudur. Dövlətimizin güclənməsini, əhalinin rifahına xidmət edəcək islahatlar keçirməsini, sosialyönümlü siyasətinin davamını istəyiriksə, siyahıyaalmaya dəstək verməli, doğru-düzgün informasiya toplamasına yardımçı olmalı, prosesdən kənarda qalmamalıyıq.

*Samirə SƏFƏROVA*

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün.**

№ 187 (4085) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

22 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## Elan

Şәki rayonu, Bideyiz kәnd sakini Mәmmәdov Asim Cәbrayıl oğlunun adına verilmiş 27 B vә 27 D seriyalı torpağın mülkiyyәtә verilmәsinә dair şәhadәtnamәlәr itdiyindәn etibarsız hesab edilir.

Hәsәnov Yaşar Abbasәli oğluna Azәrbaycan Respublikası Müdafiә Nazirliyi tәrәfindәn verilmiş hәrbi bilet (NZ № 6550414) itdiyi üçün etibarsız sayılır.

Bakı şәhәri, Sabunçu rayonu, Vaqif küçәsi, ev № 9, mәnzil 7 ünvanının sahibi Allahyarov Aleksandr Bahadır oğluna 28.02.2006-cı il tarixindә verilmiş № 262597 qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Abdullayev Abdulla Hәsәnqulu oğlunun adına, Bakı şәhәri, Sәbail rayonu, Nizami küçәsi ev 58, mәnzil 14 ünvanının çıxarışı (seriya RX 0049370) itdiyi üçün etibarsız sayılır.

Hacıyev Cabulat Hacı Mirzә oğlunun adına, Mәrdәkan qәsәbәsindә yertlәşәn torpaq sahәsinә verilmiş № 39 order itdiyi üçün etibarsız sayılır.

Əliyev Hidayәt Xәlfәli oğluna mәxsus, Bakı şәhәri, Binәqәdi rayonu, Azadlıq prospekti 185 ünvanında yerlәşәn qeyri-yaşayış sahәsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Cәfәrov Elçin Yusif oğluna Yasamal RHK tәrәfindәn verilmiş hәrbi bilet vә Əfqanıstan müharibәsi veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır (şәxsiyyәt vәsiqәsi № AA 0692863).

Mәmmәdov Kamil Atiq oğluna mәxsus, Abşeron rayonu, Masazır qәsәbәsi, Bakı-Sumqayıt avtomagistral yolunun (İpәk yolu) kәsişmәsindә yerlәşәn 5.5 sot torpaq sahәsinin çıxarış vә texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Hәsәnov Hәsәn Sәrәstan oğluna mәxsus, Bakı şәhәri, Nәsimi rayonu, I mikrorayon, Asif Mәhәrrәmov küçәsi, ev № 34 "a", mәnzil № 53 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Xәlilov Vahid İbrahim oğlunun adına, Bakı şәhәri, Qarabağ rayonu, Sanqaçal qәsәbәsi, Qazkәmәr küçәsi, ev 1, mәnzil 3 ünvanının qeydiyyat vәsiqәsi vә digәr sәnәdlәri itdiyi üçün etibarsız sayılır.

Cәbrayılov Aytac Natiq qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hәşimova Tünzalә Mәmmәd qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Sәfәrov Bәylәr Ağalar oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Xaqan Dadaşov küçәsi, ev 159 ünvanına verilmiş (3/4 hissә) çıxarış (qeydiyyat vәsiqәsi) itdiyi üçün etibarsız sayılır.

Salmanlı Sadiq Rafik oğluna Bakı Biznes Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynli Rәhim Ramazan oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Qafarov Qafar Sabir oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn II kurs tәlәbәsi Cәfәrova Cәmilә Qabil qızına verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır (AZEN№16552410, ASAN 4).



## Tallindә Avropada ilk dәfә plastik tullantılardan yol çәkildi

**Estoniyanın paytaxtında Avropada ilk dәfә plastik tullantılardan yol çәkilib. "AZƏRTAC" xәbәr verir ki, Tallinn küçәlәrinin birindә piyada keçidi plastik tullantılardan hazırlanmış yol örtüyü ilә üzlәnib.**

Şәhәr rәhbәrliyi bunu hazırda dünyanı narahat edәn plastik tullantıların düzgün istifadәsi istiqamәtindә atılmış әhәmiyyәtli addım hesab etdiyini bildirib. Şәhәr rәhbәrliyinin bu addımı bütün Avropa ölkәlәri tәrәfindәn alqışlanıb. Sözügedәn mәhsul Şotlandiya şirkәtlәrindәn biri tәrәfindәn hazırlanıb. Tәdqiqatlar göstәrib ki, bitumla qarışdırılmış bu mәhsul uzunömürlüdür. Tәbii ki, bu mәhsul istilik dәrәcәsi +30-u keçmәyәn ölkәlәr üçün daha uğurludur. Maraqlı faktlardan biri dә odur ki, bir kilometrlik yolun çәkilmәsinә tәxminәn 684 min plastik butulka vә ya 1,8 milyon birdәfәlik plastik paket sәrf olunur.

## "Azercell"in "Kabinetim" mobil tәtbiqi yenilәndi!

**Rәqәmsal hәllәr vә qabaqcıl texnologiyalar vasitәsilә insan hәyatını asanlaşdırmağı hәdәflәyәn ölkәnin lider mobil operatoru "Azercell Telekom" MMC "Kabinetim" mobil tәtbiqinin funksionallığını artırmağa davam edir.**

Belә ki, digәr imkanlarla yanaşı, istifadәçilәr artıq sadәlәşdirilmiş giriş tәcrübәsindәn yararlana, onlayn çat vasitәsilә "Azercell" müştәri xidmәtlәrinә müraciәt edә, tariflәrin kataloqunu nәzәrdәn keçirә, tarif paketlәrini asanlıqla aktiv edә vә QR skan ilә xidmәtlәrә qoşula bilәcәklәr.

Azәrbaycan, rus vә ingilis dillәrini dәstәklәyәn "Kabinetim" tәtbiqi istifadәçilәrә әn yaxşı müştәri tәcrübәsi bәxş etmәk mәqsәdilә işlәnib hazırlanıb. Hәm iOS, hәm dә Android әmәliyyat sistemlәrini dәstәklәyәn yenilәnmiş tәtbiqi ödәnişsiz olaraq, Playstore vә Appstore-dan yüklәmәk mümkündür. Tәtbiq avtomatik yenilәnmәdiyi halda, yüklәmә üçün bit.ly/Kabinetim keçidindәn istifadә edilmәlidir.

"Azercell" "Kabinetim" tәtbiqini yüklә vә nömrәnә daha asan nәzarәt et!

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## "Nar" abunәçilәrinin nәzәrinә!

**31.10.2019-cu il tarixindәn etibarәn "Azerfon"un "CityNet" ilә birgә layihәsi olan "Qutu" paketi lәğv edilәcәk vә paket çәrçivәsindә göstәrilәn İPTV vә fiberoptik internet xidmәtlәrini "CityNet" icra edәcәk.** Daha әtraflı mәlumatı https://qutu.nar.az/ sәhifәsindәn әldә etmәk olar".





**Qoç** - Sәhәr saatları yetәrincә maraqlı olacaq. Fәaliyyәt sahәsini vә ya istiqamәtini özünüz seçә bilәrsiniz. Maraqlı olaylar gözlәnilir. İdeyalarınızı reallaşdırmaq üçün münasib zamandır.



**Buğa** - Diqqәtli, sayıq olun. Rәqiblәr sizi üstәlәmәyә çalışacaqlar. Fәaliyyәt müstәvisindәki situasiyanı diqqәtlә izlәyin. Yeni tapşırıqlar vә sifarişlәr ala bilәrsiniz. Sәfәr, sәyahәt, ezamiyyәt istisna deyil.



**Əkizlәr** - Hәddәn artıq fәal olmayın. Qarşınıza qoyduğunuz mәqsәdә qarşı daha sürәtlә irәlilәmәk istәyirsinizsә, hәdәflәri tәftiş edin. Genişmiqyaslı layihәlәrin reallaşdırılması üçün münasib zamandır.



**Xәrçәng** - Tәlәsik addımlar atmayın, düşünülmәmiş qәrarlar vermәyin. Peşәkar fәaliyyәt sahәsindә yarana bilәcәk problemlәrin hәllindә yaradıcı davranış sәrgilәyin. Ruhdan düşmәyin.



**Qız** - Qarşılıqlı münasibәtlәrdәki anlaşılmazlıq inciklik vә iradlar yarada bilәr. Öhdәliklәri qulaqardına vurmayın. Diqqәtli olun, sәliqәli davranın. Evdәki situasiya nәzarәtdәn çıxmamalıdır.



**Tәrәzi** - Ən sadә vә ilk baxışdan asan tәsir bağışlayan mәqsәdә çatmaq üçün ciddi sәy göstәrmәli olacaqsınız. Bu, sizi yetәrincә qıcıqlandıracaq. Lakin emosiyaların qurbanına çevrilmәyin, mühüm işi yerinә yetirmәyә başlayın, irәlilәmәyә, hәdәfә çatmağa çalışın.



**Əqrәb** - Enerji tonusunuza diqqәt verin. Tәhlükәli gәrginliyin yarandığını hiss etdiyiniz mәqamda ehtiyatlı olun. Problemli situasiyanı sürәtlәndirәn vә dәrinlәşdirәn amillәr sizin üçün siqnal olmalıdır.



**Oxatan** - Böyük maliyyә xәrclәri tәlәb edәn planlar var. Gәlir mәnbәlәrini güclәndirmәk vә artırmağın yollarını düşünün. İşinizi sәmәrәli edin, daha az vaxt sәrf edәrәk daha çox iş görmәyi düşünün.



**Oğlaq** - Avantürizmә qapılmayın. Mәnasız risklәr uğur gәtirmәyәcәk. Bununla yanaşı, tәşәbbüskar olun. Karyeranızda irәlilәyişlәr istәyirsinizsә, fәal olun. Yaradıcılıq fәaliyyәti üçün yaxşı zamandır.



**Dolça** - Arxa planda qalsanız, vurnuxmayın, irәli atılmayın. Eqoizm zamanı deyil. İddialı davranış planları alt-üst edә bilәr. Günün ikinci yarısında kollektiv fәaliyyәtin nüanslarını aydınlaşdırın.



**Balıqlar** - Mövcud situasiyaya alışmağa çalışın. İş şәraiti o qәdәr dә pis deyil. Yeni tapşırıq, layihә vә ya sifarişlә bağlı razılıq vermәzdәn әvvәl detallarla tanış olun. Yaxın әtrafınızdakı insanlarla mübahisә etmәyin.



*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Tülkü hava limanında "Boeing"in uçuşuna mane oldu



**Moskvanın Şeremetyevo hava limanında tülkü uçuş-eniş zolağına çıxaraq "Boeing"ın uçuşuna әngәl törәtdi. Hadisәnin videosu sosial şәbәkәlәrdә yayılıb.**

Tәyyarә uçuşa hazırlaşdığı zamanda tülkü onun qarşısından keçib. Mühәrriklәrin sәs-küyu heyvanı qorxudaraq zolağdan qaçmağa vadar edib. Son zamanlar Moskva aeroportlarında tülkülәrlә bağlı artıq bir necә hadisә baş verib. Belә ki, sentyabrda Domodedov hava limanında tülkü gözlәmә zalında azmışdır.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.